Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13 SENTYABR 2019-cu il

№ 162 (4060)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDA BÖYÜK ETİRAF - «BİZƏ GÜCLƏNƏN TƏZYİQLƏR MƏHZ QARABAĞ PROBLEMİ İLƏ BAĞLIDIR...»

səh. 9

ATƏT PA Qarabağ münaqişəsinin həlli üçün hər şeyi edir, ATƏT özü və MQ həmsədrləri isə... ■ səh. 5 ■

Ermənilər özləri KTMT-də Azərbaycan və Ermənistanın təsir gücləri barədə maraqlı müqayisə aparmağa başlayıblar ■ səh. 8 ■

NATO-dan Gürcüstana "separatçı ərazilərdən imtina edin" çağırışının zəncirvari təhlükəsi və ziyanı... ■ səh. 6 ■

"Amulsar" olayı Paşinyanın onsuz da zəif beynəlxalq mövqelərini silkələdi... ■ səh. 7 ■

Rusiya vilayətlərinin Qafqazda əsas diqqəti Azərbaycana yönəlir - regionda yeni trend... ■ səh. 11 ■

Sosial şəbəkə qaragüruhu trendə çevrilən Nəsimi kompozisiyasını da hədəfə alır ■ səh. 10 ■

Məktəblərdə psixoloji xidmət qanunîləşdirilir ■ səh. 14 ■

Bakının "ən xəstə" rayonları - niyə... ■ səh. 15 ■

*«Transmilli media qurumlarının Azərbaycanda fəaliyyətinə məhdudiyyət qoyulmur, ancaq onlar bəzən lobbi qruplarının təsiri altında qərəzli məlumatlar yayır...»*

■ səh. 3 ■




## Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik Bakı toplantısından dünyaya ümdə mesaj...






Əlikram kimi separatçı düşmənin anti-Azərbaycan bəyanatını yayımlayan radikal müxalifətçinin TV-si... ■ səh. 4 ■

Paşinyan aprel döyüşlərinin iştirakçılarının istintaqına başladı - hədəf... ■ səh. 8 ■

Antalyaya tur təşkili adı altında vətəndaşları aldadan daha bir turşirkətin adı çıxdı - «Like Travel»... ■ səh. 13 ■

■ səh. 2 ■ Bir daha Azərbaycanda "siyasi məhbus" məsələsi və "yalnız qəbirin düzəldəcəyi qozbellərə" Əli Həsənovun mesajı...



■ səh. 5 ■ Radikal müxalifət rəhbərləri sosial şəbəkələrdə də bir-birilə normal dialoqa çıxa bilmirlər



■ səh. 12 ■ Təhsil naziri məktəblərdə ictimaiyyəti narahat edən əsas problemləri gündəmə gətirdi



■ səh. 10 ■ Azərbaycanda dövlət hesabına mənzil alanların sayı 2010-cu illə müqayisədə azı 6 dəfə çoxalıb - 4500-ə yaxın ailə...



■ səh. 13 ■ Dərman zəhərlənmələri çoxalır - həkimlər çox ciddi mətləblərdən danışır...





## Prezident İlham Əliyev Bakıda AŞPA prezidenti ilə müxtəlif məsələləri müzakirə etdi

**Prezident İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskieni qəbul edib.**

Söhbət zamanı AŞPA prezidenti xanım Lilian Mori Paskienin Azərbaycanla tanışlığının, müxtəlif səviyyələrdə keçirilən görüşlərin və aparılan müzakirələrin əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olunub.

Görüşdə bu il Avropa Şurasının təsis edilməsinin 70 illiyinin qeyd olunduğu və bu çərçivədə keçirilən tədbirlərin önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycan-Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edilib, Azərbaycanın Avropa Şurası çərçivəsində mövcud olan konvensiyalara qoşulması və bu istiqamətdə ölkəmizin qanunvericiliyinin uyğunlaşdırılması məsələlərinə toxunulub.

Görüşdə Azərbaycanda insan haqlarının qorunması, demokratik inkişafla bağlı məsələlər müzakirə edilib.

Söhbət zamanı Avropa Şurasının gündəliyində duran və qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

## Prezident Suraxanı rayonundakı 101 nömrəli məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub

**Prezident İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı Əmi Məmmədov adına 101 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Səidə Məmmədova görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verib.

## Prezident Əliyev Bakı Metropoliteninin "Xətai" stansiyasında görülən işlərlə də tanış olub

**Bakı Metropoliteninin "Xətai" stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib.**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına görülən işlər barədə məlumat verib.

Dövlət başçısına Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan Təlim-Tədris Mərkəzi barədə də məlumat verilib.

## Azərbaycan Krımda keçirilən hər hansı "seçkilər"i tanımadığını bəyan etdi

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Leyla Abdullayeva Krım yarımadasında keçirilmiş qondarma "yerli seçkilər"i şərh edib.**

Nazirlikdən baki-xeber.com-a verilən məlumata görə, şərhdə deyilir:

"Azərbaycan Xarici İşlər Nazirliyi, Ukraynanın Konstitusiyasında təsbit olunduğu kimi, bu ölkənin beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir. Buna görə də, Azərbaycan Respublikası Ukrayna Hökumətinin razılığı olmadan keçirilən hər hansı "seçkilər"i tanımır".

**"Bakı-Xəbər" qəzetinin kollektivi əməkdaşımız Samirə Səfərovaya qudası Məmməd Ələkbərovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Bir daha Azərbaycanda "siyasi məhbus" məsələsi və "yalnız qəbirin düzəldəcəyi qozbellərə" Əli Həsənovun mesajı...

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycandakı siyasi məhbuslar üzrə məruzəçisi Sunna Torhildur Evarsdottirin ölkəyə buraxılmaması ilə bağlı iddialara münasibət bildirib.**



"Trend"in məlumatına görə, Ə.Həsənov deyib ki, "Buraxılmırdı" ifadəsi bir qədər kəskindir, "Dəvət vermirdi" isə başqa ifadədir.

Prezidentin köməkçisi bildirib ki, dünyada heç bir vətəndaşın, məmurun Azərbaycana gəlişi qadağan deyil: "Azərbaycan açıq ölkədir, viza sistemi var. İstənilən insan bura gələ bilər, AŞ PA bizim tərəfdaş təşkilatlarımızdan biridir, illərdir ki, əməkdaşlıq edirik, mümkün olan tövsiyələrini nəzərə alırıq. Əlbəttə ki, Azərbaycanın öz dövlətçilik marağı var, həmişə bu maraqlardan çıxış edir. Siyasi məhbus, söz və mətbuat azadlığı məsələsində beynəlxalq təşkilatlarla bəzən bir platformada birləşirik, onların fikirləri ilə razılaşırıq, bəzi hallarda isə razılaşmırıq. Çünki qərəzli yanaşma görürük. Təəssüflər olsun ki, bu yanaşma qərəzli mahiyyət kəsb edir. Biz bəyan etmişik, bu gün də deyirik ki, Azərbaycanda siyasi məhbus yoxdur. Konkret cinayət əməlinə görə məhkum olunan insanlar var. Onların hər biri hüquqlarından həm Azərbaycanda, həm də Avropa məkanında istifadə edə bilərlər. Avropa hüququ Azərbaycanda keçərlidir, Azərbaycan Avropa İnsan Hüquqları məhkəməsinin qərarlarını zaman-zaman nəzərə alıb. Əgər kim Azərbaycan məhkəmələrinə, hüquq sisteminə güvənmirsə, buyursun, Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etsin. "Siyasi məhbus" siyasi dünyagörüşünə, fəaliyyətinə görə həbs olunan şəxsə deyirlər. Avropa Şurası ilə bu məsələdə razı deyilik".

Qeyd edək ki, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycandakı siyasi məhbuslar üzrə məruzəçisi Sunna Torhildur Evarsdottir 5-7 sentyabrda Azərbaycana səfər edib.

1993-cü ildən Azərbaycanda milli birlik - vətəndaş həmrəyliyi siyasəti yürüdülür. Bunu da Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

Ə.Həsənov bildirib ki, siyasi partiyalar cəmiyyətin institutlarıdır: "Azərbaycan iqtidarı ilə cəmiyyətin digər təmsilçiləri - qeyri-hökumət təşkilatları, media və siyasi partiya nümayəndələrinin ünsiyyəti bütün dövrlərdə aktual olub. Biz milli birliyi, həmrəyliyi Azərbaycanın alternativsiz reallığı kimi dəyərləndiririk. Bunun alternativini görmürük. Dialoqun əksi qarşıdurma və qeyri-qanuni mübarizədir. Biz dialoqu yüksək dəyərləndiririk, istənilən halda Azərbaycan cəmiyyəti üçün dialoq həmişə aktualdır. Dünən də Bakıda belə bir tədbir keçirilib. Düşünürəm ki, siyasi partiyalar, media və qeyri-hökumət təşkilatları bu istiqamətdə fəaliyyətlərini məhdudlaşdırmayacaqlar. Gələcəkdə həm daxili, həm də xarici siyasətlə bağlı dialoq masasında müzakirələr aparıla bilər".

Siyasi fəaliyyətini söyüş üzərində quran bəzi insanların fəaliyyətinə münasibət bildirən Ə.Həsənov vurğulayıb ki, söyüş və təhqirdən istifadə edənlərə müxalifət demək olmaz: "İnsanlar var ki, Azərbaycanı müxtəlif səbəblərə görə tərk edib, xarici ölkədə özünə bir vasitə ilə sığınacaq tapıblar. Təəssüflər olsun ki, onlar anti-Azərbaycan dairələrinin əlində alətə çevriliblər. Anti-Azərbaycan dairələrinin maliyyələşməsində erməni fondları da iştirak edir. Xarici ölkələrdə onlardan Azərbaycana qarşı çirkin formada istifadə edirlər. Bu, Azərbaycan millətinin adına ləkədir. Düşünürəm ki, onlar nə vaxtsa Azərbaycan xalqına məxsus dəyər nümayiş etdirərək bu yoldan çəkinəcəklər. Bu yoldan çəkilməyənlərə nə etmək olar, bu onların seçimidir. Əgər onlar xaricdə iaşə obyektlərində bu davranışları özlərinə həyat kredosu, fəaliyyət nümunəsi seçiblərsə, qoy fəaliyyətlərini davam etdirsinlər. Əlbəttə ki, sağlam düşüncəli Azərbaycan vətəndaşları onlara nifrət edir".

# Azərbaycan XİN Fransa deputatlarını "azadlıq, bərabərlik, qardaşlıq" ideallarına xəyanətdə suçladı - həm də əsaslı...

**Fransa parlamentarilərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin fransız deputatların Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfəri ilə bağlı "Trend"ə şərhində deyilir.**



Nazirlik bildirir ki, yerli azərbaycanlı əhalinin qanlı etnik təmizlənməsini həyata keçirən və münaqişənin həlli çərçivəsində məcburi köçkünlərin əzəli yaşayış yerlərinə qayıtmalarının qarşısını almaq üçün əlindən gələni edən Ermənistan tərəfindən ölkəmizin işğal olunmuş ərazilərinə bu qanunsuz səfərin həyata keçirilməsi Fransa parlamenti üzvlərinin rəhbər tutmalı olduqları "azadlıq, bərabərlik, qardaşlıq" yüksək ideallarına və fundamental insan hüquqlarına tamamilə ziddir:

"Qeyd etmək lazımdır ki, bu addım qərəzli, Fransanın erməni lobbisinin təsiri altında olan və əvvəlki qanunsuz səfərləri səbəbindən adı artıq Azərbaycana girişi arzuolunmaz şəxslər siyahısında yer alan Gi Tesye (Guy Teissier) kimi deputatlar tərəfindən atılıb. Ona qoşulan qanunsuz səfərin digər iştirakçılarının, millət vəkilləri Valeri Buaye (Val?rie Boyer), Jan-Pyer Cübertafon (Jean-Pierre Cubertafon), Məhəmməd Laqhila (Mohamad Laqhila), Daniel Kazaryan (Dani?le Cazarian), Giyom Kasparyan (Guillaume Casbarian) və senator Pyer Uzuliasın (Pierre Ouzoulias) da adları müvafiq olaraq həmin siyahıya salınacaq".

Bununla əlaqədar Fransanın ölkəmizdəki müvəqqəti işlər vəkili Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və ona Fransa tərəfinə ünvanlanan etiraz notası təqdim edilib. Sənəddə bu cür qanunsuz səfərlərin həyata keçirilməsinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin, o cümlədən, Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunması məqsədini güdən səylərini ciddi şəkildə sarsıtdığına, eyni zamanda, bu prosesdə vasitəçi qismində Fransanın nüfuzuna xələl gətirdiyinə xüsusi diqqət çəkilir. "Fransa hökumətini bir daha bu ölkənin parlamentarilərinin Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış status-kvonun möhkəmləndirilməsinə yönəlmiş qanunsuz səfərlərinin qarşısını almaq üçün qətiyyətli tədbirlər görməyə və bununla da öz beynəlxalq öhdəliklərinin düzgün yerinə yetirilməsi maraqlarını rəhbər tutaraq, nizamlamada vasitəçi kimi qərəzsiz yanaşmasının ardıcıllığını təsdiq etməyə çağırırıq".

**Sentyabrın 12-də Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı öz işinə başlayıb. "Trend"in məlumatına görə, tədbirdə Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən, o cümlədən Türkiyə, Hindistan, Banqladeş, Nepal, Keniya, Zimbabve, İraq, Kosovo, Makedoniya, Şri-Lanka, Tanzaniya, Uqandadan nümayəndələr, həmçinin ölkəmizin kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak edir.**

# Umumdünya Mətbuat Şuraları Assosiasiyasının illik Bakı toplantısından dünyaya ümdə mesaj...

*”Transmilli media qurumlarının Azərbaycanda fəaliyyətinə məhdudiyyət qoyulmur, ancaq onlar bəzən lobbi qruplarının təsiri altında qərəzli məlumatlar yayır...”*




Tədbirdə BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, o cümlədən yerli media qurumlarının rəhbərləri və ekspertlər də iştirak edir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov toplantıda çıxış edib.

Ə.Həsənov Azərbaycan milli mətbuatının müstəqillik dövründə bu günə qədər keçdiyi tarixi yolu xatırladaraq bildirib: "Bu gün Azərbaycanda fəaliyyət göstərən KİV-lər cəmiyyətdə baş verən hadisələri, dövlətin həyata keçirdiyi siyasəti, o cümlədən beynəlxalq aləmdə cərəyan edən prosesləri sərbəst və müstəqil şəkildə araşdırır, əhalinin rəyini öz səhifələrində əks etdirərək hakimiyyətin nəzərinə çatdırır. KİV-lər istədiyi informasiyaları sərbəst şəkildə toplayıb yaymaq, o cümlədən iqtidarın apardığı siyasəti tənqid etmək və yaxud dəstəkləmək imkanına malikdir".

Prezidentin köməkçisinin sözlərinə görə, sosial şəbəkə istifadəçilərin sayı ölkədə 3 milyon nəfərdən çoxdur ki, bu da cəmi 10 milyon əhalisi olan bir ölkə üçün çox böyük göstəricidir: "Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin özünün və əksər dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir".

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyası 1992-ci ildə yaradılıb:

"Amerikanın müəyyən ştatlarının, Türkiyə, Hindistan, Pakistan, Banqladeş, Nepal, Zimbabve, Keniya, Makedoniya və digər ölkələrin jurnalistləri belə bir qurum yaradıblar. O vaxtdan indiyə qədər quruma üzv ölkələrdə tədbirlər keçirilir və jurnalistlərin qarşılaşdığı problemlər, informasiya əldə etmələri ilə bağlı yaranmış maneələrin aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilir. Ümumilikdə dünyada medianın inkişaf meylləri müzakirə olunur".

Ə.Amaşov bildirib ki, bu gün Azərbaycana 15-dən çox ölkədən qonaqlar gəlib və digər ölkələrdən də qonaqlar gələcək.

Tədbirdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib ki, Türkiyə Azərbaycanın ən böyük yarası olan Dağlıq Qarabağ probleminin tez bir zamanda həllini vacib sayır: "Biz bu məsələdə dünyada eyni çevrələrlə üz-üzə gəlməkdəyik. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırım törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediası üzərinə düşən ən böyük vəzifələrdən biridir".

Əflatun Amaşov deyib ki, Azərbaycanda media sahəsində uğurlar əldə olunub, 1998-ci ildə senzura ləğv edilib, qanunvericilik bazası təkmilləşdirilib.

Ə.Amaşov qeyd edib ki, Azərbaycanda internet media da fəaliyyətini uğurla davam etdirir: "Azərbaycanda 3 milyona yaxın insan sosial şəbəkədən istifadə edir. Ölkəmizdə etnik qruplar sülh və əminamanlıq şəraitində yaşayırlar. Media da bu istiqamətdə dövlət siyasətini dəstəkləyir".

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Bakıda keçirilən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının növbəti illik toplantısında çıxışı zamanı deyib ki, Azərbaycanda azad sözə və fikrə dövlət səviyyəsində yüksək əhəmiyyət verilməsinin nəticəsidir ki, transmilli media qurumlarının ölkə ərazisində verilişlərinin yayılmasında heç bir məhdudiyyət yoxdur, eyni zamanda vətəndaşların "Facebook", "Twitter", "Youtube", "Instaqram" kimi sosial şəbəkələrə sərbəst çıxışı təmin edilmişdir.

Ə.Həsənov Azərbaycan milli mətbuatının müstəqillik dövründə bu günə qədər keçdiyi tarixi yolunu xatırladaraq bildirib: "Bu gün Azərbaycanda fəaliyyət göstərən KİV-lər cəmiyyətdə baş verən hadisələri, dövlətin həyata keçirdiyi siyasəti, o cümlədən beynəlxalq aləmdə cərəyan edən prosesləri sərbəst və müstəqil şəkildə araşdırır, əhalinin rəyini öz səhifələrində əks etdirərək hakimiyyətin nəzərinə çatdırır. KİV-lər istədiyi informasiyaları sərbəst şəkildə toplayıb yaymaq, o cümlədən iqtidarın apardığı siyasəti tənqid etmək və yaxud dəstəkləmək imkanına malikdir.

Hazırda Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş KİV-lərin ümumi sayı 5000-dən çoxdur. KİV-lərin kəmiyyət göstəricilərinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkədə 40-dək gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet-jurnal və digər media nümunələri nəşr olunur. 300-ə yaxın xəbər və analitik internet saytı, 20-yə yaxın informasiya agentliyi, rayonlarda və bölgələrdə isə 100-ə yaxın KİV fəaliyyət göstərir.

Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional və 17 kabel televiziyası, 25 internet televiziyası,14 radio fəaliyyət göstərir. 2005-ci ildə ölkədə İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və hazırda uğurla fəaliyyət göstərir".

Prezidentin köməkçisinin sözlərinə görə, sosial şəbəkə istifadəçilərin sayı ölkədə 3 milyon nəfərdən çoxdur ki, bu da cəmi 10 milyon əhalisi olan bir ölkə üçün çox böyük göstəricidir: "Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin özünün və əksər dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir".

Müşahidələr və təhlillərdən aydın olur ki, son illərdə sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir imkanlarını artırmağa çalışır. Lakin burada bir məqamı qeyd etməliyik ki, sosial şəbəkələrin rolunu müsbət xarakterizə edən cəhətlərlə yanaşı, mənfi meyillər də özünü göstərir. Sosial şəbəkələrin meydana gəlməsi bir tərəfdən söz və öz fikrini ifadə etmək azadlığının təmin olunmasında yeni perspektivlər açır. Digər tərəfdən sosial şəbəkələrlə insan hüquqları arasındakı qarşılıqlı təsir bəzən xoşagəlməz vəziyyət yaradır. Belə ki, sosial şəbəkələrdə insanların şəref və ləyaqətinin alçaldılması halları baş verir ki, bu da insan hüquqlarının pozulması deməkdir. Təəssüf ki, bu cür mənfi hallar bəzən transmilli medianın fəaliyyətində də özünü göstərir. Transmilli media qurumlarının verilişlərinin ölkədə yayılmasının müsbət cəhəti bundan ibarətdir ki, əhali dünyada baş verən proseslərlə bağlı operativ məlumatlar əldə etmək imkanı qazanır. Burada özünü göstərən mənfi xüsusiyyət isə ondadır ki, bəzən müxtəlif siyasi dairələrin və yaxud lobbi qruplarının təsiri ilə transmilli media qurumları ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır, obyektivlik və bitərəflik kimi prinsiplərə zidd olaraq qərəzli, subyektiv informasiyalar yayır.

Yuxarıda dediklərimizi ümumiləşdirsək, belə bir qənaətə gəlmək olar ki, Azərbaycan hakimiyyəti hazırda söz və mətbuat azadlığının, KİV-in inkişafının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Bizim ölkə dünyanın və bölgəmizin azsaylı ölkələrindəndir ki, hələ 1998-ci ildə mətbuat və informasiya nazirliyini ləğv etmiş və mətbuatın dövlət tənzimlənməsindən birmənalı şəkildə imtina etmişdir. Azərbaycan dövləti bu işi hazırda ölkə jurnalistlərinin öhdəsinə buraxmışdır ki, onlar da öz ümumi toplantılarında jurnalistlərin vahid ictimai təşkilatı olan Mətbuat Şurasını yaratmışlar. Mətbuat Şurası bəhs etdiyim istiqamətdə dövlətin əsas tərəfdaşıdır. Ölkə jurnalistlərinin ictimai maraqlarının yeganə təminatçısı kimi çıxış edən bu qurum uğurlu fəaliyyət göstərir və bugünkü möhtəşəm toplantı da bunun əyani sübutudur. Dünya ölkələrini təmsil edən əksər Mətbuat Şuralarını Bakıya toplamaq və milli-transmilli jurnalistikanın, azad medianın problem və uğurların müzakirə etmək bacarığı bunun göstəricisidir".

**Türkiyə səfiri Ümumdünya Mətbuat Şuralarının Bakı toplantısında Qarabağ problemi barədə xalqın gözlədiyi bəyanatı bir daha səsləndirdi**

Türkiyə və Azərbaycan olaraq mədəniyyətimizlə, tariximizlə bir millət, iki dövlətik. "Trend"in məlumatına görə, bunu Bakıda keçirilən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısında Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.

Səfir bildirib ki, Türkiyə və Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə qürur duymalıyıq, bu prosesi davam etdirməkdə israrlıyıq.

Səfir qeyd edib ki, Türkiyə Azərbaycanın ən böyük yarası olan Dağlıq Qarabağ probleminin tez bir zamanda həllini vacib sayır: "Biz bu məsələdə dünyada eyni çevrələrlə üz-üzə gəlməkdəyik. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırım törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediasının üzərinə düşən ən böyük vəzifələrdən biridir".

# Əlikram kimi separatçı düşmənin anti-Azərbaycan bəyanatını yayımlayan radikal müxalifətçinin TV-si...

**Xaricə mühacir adı ilə sığınan bəzi şəxslərin ölkəmizə qarşı əsl informasiya terroru apardığı ilə bağlı məlumat vermişdik. Onların ortaya qoyduğu fəaliyyət sübut edir ki, bu adamlar hətta erməni ilə də əlbir olmağa hazırdırlar.**

Qurban Məmmədov öz kanalından Azərbaycana qarşı sərgilədiyi mövqeyinə görə heç də ermənidən geri qalmayan separatçı Əlikram Hümbətovun talış xalqına növbəti sərsəm müraciətini yayıb. Kanalın şərh bölümündə də separatçı "lideri" müdafiə edən şərh yazıb. Ona olan dəstəyini və sevgisini də gizlətməyib.

Qeyd edək ki, bu hadisə ölkə daxilində böyük rezonansa səbəb olub. Hətta Q.Məmmədovun "tribunasından" tez-tez istifadə edən partiya rəhbərlərinə öz silahdaşları tərəfindən müraciət edilib ki, bir daha həmin efirdə görünməsinlər.

KXCP üzvü Oqtay Gülalıyev öz partiyasının sədrinə sosial şəbəkələr üzərindən müraciət edib: "Məsələnin dəhşətli və acınacaqlı tərəfi odur ki, özünü Elçibəyçi, Bütöv Azərbaycançı hesab edən Mirəlioğlu kimi bəziləri Əlikram kimi avantürist, separatçı bir şəxsə efir məkanı verən, ona ideoloji, siyasi dəstək nümayiş etdirən kanalın əsas söz sahiblərindəndir. O kanal ki, onun rəhbəri Q.Məmmədov Mirəlioğlunu "bir payız axşamı" inqilabının lideri, prezidentliyə namizəd elan edib (!?). Deyir dostunu mənə de, sənin kim olduğunu deyim. Deyəsən pərdə yavaş-yavaş götürülür. Kimin harada, kiminlə olduğu üzə çıxır... Ə.Hümbətov Elçibəy hakimiyyətinə, Azərbaycan dövlətçiliyinə qarşı silah qaldıran, ölkəmizin ərazi bütövlüyünün parçalanmasına, suverenliyimizin şübhə altına alınmasına birbaşa cəhd edən, özünü qondarma "Talış Muğan Respublikası"nın prezidenti elan edən, Ermənistana səfər edib ermənilərdən üzr istəyən, bir sözlə, xalqımızın, dövlətimizin maraqlarını satan separatçıdır. Görün, Mirmahmud Mirəlioğlu və onun kimilər uğrunda "mübarizə apardıqları" dəyərlərdən nə qədər uzaqlaşıblar ki, Əlikram kimi separatçının fikirlərini yayan, ona tribuna verən kanalı paylaşırlar. Mirəlioğlu həmin kanalın sahibi Q.Məmmədovun "inqilab lideri", prezidentliyə namizədidir. Buyursun, ya həmin kanalda iştirakdan imtina etsin (necə ki, biz sapqın mövqeyinə görə bir çox media qurumunda iştirakdan imtina etmişik- red.), ya da Ə.Hümbətovlarla eyni dəyərləri paylaşdığını etiraf edib susun...".

Bu hadisəyə sərt reaksiya verənlərdən biri də AXCP-nin funksioneri Natiq Ədilov olub. O özünün "Facebook" səhifəsində Q. Məmmədovun hərəkətini kəskin pisləyib: "Londonda mənzillənən fitnəkar Q. Məmmədov öz "YouTube" kanalından özünü qondarma "Talış Respublikası"nın "prezidenti" sayan Ə.Hümbətovun müraciətini yayıb.

Talış xalqına ünvanlanan müraciətdə "prezident" deyir ki, Azərbaycanda yaşayan bütün millətlər, sosial qruplar dövlət idarəçiliyində bacarıqsızlığını göstərdiyindən talışlar, talış xalqı öndə olmaqla ətrafına güc (?) toplamaqla, bütövlükdə, dövlət idarəçiliyini üzərinə götürsün!




Ə.Hümbətovla bağlı geniş izahata ehtiyac yoxdur, o dəfələrlə açıq şəkildə Azərbaycana düşmən mövqeyini ifadə etmişdir, hazırkı respublikanın sərhədlərini və formasını süni təsisat adlandırmış, onun suverenliyini şübhə altına qoymuşdur. Ermənilərdən üzrxahlığı, onları dost görməsi də köhnə söhbətdir".

Göründüyü kimi, Q.Məmmədovun ermənilərdən heç nəyi ilə fərqlənməyən, separatçılığı heç kimdə şübhə doğurmayan Ə.Hümbətov kimi bir adama tribuna verib, onun qızışdırıcı, konstitusion quruluşumuza zidd olan bəyanatını yayması hətta radikal müxalif dairələr tərəfindən kəskin tənqidlə qarşılanıb. Q.Məmmədovun bu əməlini media ekspertləri necə dəyərləndirirlər?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Ə.Hümbətovun kim olduğu bizə məlumdur: "Onun vətən xaini olması məhkəmə hökmü ilə öz əksini tapıb və həmin cəza onunla bağlı icra edilib. Sadəcə, Azərbaycan dövlətinin humanistliyi nəticəsində o, azadlığa buraxılıb, ölkə vətəndaşlığından məhrum olundu ki, gedib ömrünün qalan hissəsini xaricdə, sakit şəkildə, adam balası kimi yaşasın. Təəssüflər olsun ki, o, adam balası kimi yaşaya bilmədiyini ortaya qoyur. Azərbaycanın əleyhinə təbliğat aparmaqda işğalçı ermənilərlə əlbirlik də nümayiş etdirdi. Təbii ki, belə vətən xaini ilə işbirliyində olmaq vətənə xəyanətdən başqa nəsə deyil. Q.Məmmədovun onun müraciətini hər hansı formada tirajlaması elə vətənə xəyanət kimi bir addımdır.

Mətbuat və ifadə azadlığı kimi başa düşülən məsələnin də bir həddi var. Bu ifadə azadlığı sənin dövlətinə xəyanət məqsədilə köklənibsə, ondan mütləq imtina etməlisən. Amma təəssüflər olsun ki, Q.Məmmədov bunu bacarmır, o, xainin müraciətini efirdən yayır. Bunu edən şəxsə nə ad verə bilərik? Satqınlıqdan başqa nəsə ad vermək olmur. Görünür ki, Q.Məmmədov özünün sırasını seçib, kimin yanında olduğunu nümayiş etdirib. Bundan sonra o nə danışsa, nə çağırış etsə də, ona vətən xaini ilə əlbir olan adam kimi baxacaqlar. Belə bir adama Azərbaycanın daxili işlərinə öz kirli burnunu soxmasına izn verilməməlidir. Azərbaycan dövləti də vətən xaininə qahmar çıxan Q.Məmmədovla bağlı hüquqi ölçü götürülməsi üçün addımlar atmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Boltonun başını İran "yedi"?



**ABŞ prezidenti Donald Trampın iki gün əvvəl Ağ Evin milli təhlükəsizlik müşaviri Con Boltonu vəzifəsindən kənarlaşdırmasının səbəbləri ilə bağlı yeni iddialar ortaya atılıb.**

Qərb mediası iddia edir ki, İrana sanksiyaları azaltmağı gündəmə gətirən Tramp bu fikrə qarşı çıxmasına görə Boltonu istefaya göndərib.

Baki-xeber.com xəbər verir ki, "Bloomberg"in məlumatına görə, bazar ertəsi Oval Ofisdə keçirilən görüşdə Prezident Tramp Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası çərçivəsində İran Prezidenti Həsən Ruhani ilə görüşü təminat altına almaq üçün "sanksiyaları yumşaltmağı" təklif edib. Maliyyə naziri Steven Mnuçin bunun İranla danışıqlara yol açacağını bildirərək Trampın təklifini dəstəkləyib, Bolton isə buna sərt şəkildə qarşı çıxıb.

Bunun ardınca Tramp uzun müddətdir İran və Venesuela məsələsinə fikir ayrılığı yaşadığı iddia edilən Boltonu vəzifəsindən azad etmək qərarına gəlib.

Mənbələr Ağ Evin BMT Baş Assambleyası çərçivəsində Trampla Ruhani arasında keçiriləcək danışıqlarla bağlı hazırlığa başladığını bildirib. İranın isə, ABŞ-ın sanksiyalarına baxmayaraq, Tramp-Ruhani görüşünü qəbul edib-etməyəcəyi hələlik məlum deyil.

Bundan əlavə, İsrail rəsmiləri Binyamin Netanyahu rəhbərliyinin Boltonun Ağ Evdən getməsi ilə ən sadiq müttəfiqlərindən birini itirdiklərini söyləyib.

**Adının çəkilməsini istəməyən rəsmilər İsrailin İran rəhbərlərinin tanınmasından və İran rəhbərliyinə qarşı ABŞ-ın sanksiya və təzyiqlərinin azaldılmasından narahat olduqlarını vurğulayıblar.**

# ATƏT PA Qarabağ münaqişəsinin həlli üçün hər şeyi edir, ATƏT özü və MQ həmsədrləri isə...

**ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üçün nə mümkündürsə edir və buna çalışır. Qurum münaqişənin sülh yolu ilə nizamlanması üzərində çalışır və biz də bu prosesdə vasitəçilik edirik. Lakin təbii ki, istənilən münaqişənin həlli tərəflərdən asılıdır.**



## *Əli Orucov: "ATƏT münaqişəni tam monopoliyasında saxlamaqla..."*

Bu fikirləri ATƏT Parlament Assambleyasının prezidenti Georgi Sereteli Ermənistanın Gürcüstandakı səfiri Ruben Sadoyanla keçirdiyi görüşdə bildirib. O xüsusi olaraq qeyd edib ki, münaqişənin həlli üçün siyasi iradə tələb olunur: "İstər Rusiya-Gürcüstan, istərsə də Dağlıq Qarabağ münaqişəsi regionun ümumi inkişafına mane olur. Buna görə də əsas vəzifə bu münaqişələrin həlli üçün mümkün olan hər şeyi etmək və ATƏT-in bu prosesdə daha fəal iştirakı yollarını axtarıb tapmaqdır".

Görünən odur ki, həmişə olduğu kimi, bu dəfə də ATƏT rəsmisi məsuliyyəti tərəflərin üzərinə atır. İşğalçı ilə işğala məruz qalan tərəfə fərq qoyulmur. Bərabər formada məsuliyyəti tərəflərin üzərinə qoymağa çalışır. Ən azından, beynəlxalq hüquq normalarından irəli gələn prinsiplərin həyata keçirilməsini ATƏT tələb edə bilərdi. Qurum isə buna heç təşəbbüs belə göstərmir.

O baxımdan, ATƏT Parlament Assambleyası prezidentinin dedikləri nə dərəcədə reallığı əks etdirir? Həqiqətənmi ATƏT münaqişənin həlli ilə bağlı nə mümkündürsə edir? Bu deyilənlərə nə dərəcədə inanmaq olar?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ATƏT münaqişənin həlli ilə bağlı bütün imkanlardan istifadə etmir: "Öncə onu qeyd etmək istərdim ki, Dağlıq Qarabağ probleminin beynəlmiləlləşdirilməsi və ATƏT-in vasitəçiliyinə verilməsi səhv idi. Əsası AXC iqtidarı tərəfindən qoyulan bu səhv siyasət sonradan düzəldilmədi. Bu məsələdə ATƏT-ə o qədər geniş səlahiyyətlər verildi ki, bu, vasitəçilik missiyasını da aşdı. İndi tərəflər oturub ATƏT-in Minsk Qrupunun münaqişə ilə bağlı hansı addım atacağını, hansı mövqe sərgiləyəcəyini gözləyir. ATƏT də münaqişəni tam monopoliyasında saxlamaqla nə həllinə çalışır, nə də imkan verir ki, problem digər vasitələrlə öz həllini tapsın. ATƏT-in Minsk qrupunun həmsədrləri daha çox münaqişənin konservləşdirilməsini və öz maraq dairələrində saxlanmasını istəyirlər. Bu istəklərinə də nail olublar. Bütünlüklə münaqişənin həlli ilə bağlı vasitəçilik institutundan tamamilə imtina edilməsinin tərəfdarı deyiləm. Lakin Minsk Qrupunun həmsədr dövlətləri dəyişdirilməli və quruma neytral ölkələr cəlb olunmalıdır. Yaxud da münaqişə tərəflərinə münsibətdə dövlətlərin proporsiyası qorunmalıdır. Ancaq indiki həmsədrlər olan ABŞ, Fransa və Rusiya Ermənistanla müxtəlif formada yaxın əlaqələrə malikdirlər. Rusiya həm də münaqişə tərəfidir. Bildiyiniz kimi, Qarabağ münaqişəsi başlayandan indiyədək Rusiyanın silahlı qüvvələri işğal aktında iştirak ediblər. Xocalı soyqırımının törədilməsində Rusiyanın 366-cı motoatıcı alayı birbaşa iştirak edib.

*"Azərbaycan elə mövqe, elə xarici və daxili siyasət yeritməlidir ki, təcavüzkara basqılar artsın"*

Belə olan halda, Rusiyanın vasitəçiliyi heç bir məntiqə, siyasətə və hüquqa sığmır.

Artıq iqtidar yetkililəri də bəyan edirlər ki, ATƏT bu münaqişəni həll etmək iqtidarında deyil. Mənə elə gəlir işğalçı ölkənin ictimaiyyəti də anlamağa başlayıb ki, bu konflikt çözülmədən onların qurtuluşu, nicatı yoxdur. Bu astagəllikdən, durğunluqdan, təbii ki, Azərbaycan tərəfi ciddi itkilər və ziyan çəkdiyindən, ən ağır nəticələri biz daşıyırıq. Ona görə də Azərbaycan elə mövqe, elə xarici və daxili siyasət yeritməlidir ki, təcavüzkara basqılar artsın. Onu konstruktiv danışıqlara oturda bilsin. Bunu etməyə Azərbaycanın hər cür imkanları və hüquqi əsasları var".

***Vadadi ORDAHALLI***

# Radikal müxalifət rəhbərləri sosial şəbəkələrdə də bir-birilə normal dialoqa çıxa bilmirlər

**Radikal müxalifət hər zaman hakimiyyəti onları təbliğat imkanlarından məhrum etməkdə günahlandırıb. İddalarının da məğzi bundan ibarətdi ki, guya hakimiyyət onlara nəzarətində olan televiziyalara çıxmağa şərait yaratmır. Sonra dedilər ki, onsuz da televiziyalara baxan yoxdur, hamı sosial şəbəkədən istifadə edir, heç ora çıxmaq onlara lazım deyil.**



## *Samir Adıgözəlli: "Bunun başlıca səbəbini radikal müxalif çevrədəki münasibətlərin antoqonist olması, partiya sədrlərinin həddən artıq avtoritar düşüncəyə malikliyi ilə izah edə bilərəm"*

Müxalifətin əlində sosial şəbəkələr üzərindən fəaliyyət göstərən bəzi informasiya resurslarının olduğu məlumdur. Ancaq maraqlıdır ki, orada da həmin oriyentasiyada olan partiyaların rəhbərləri monoloq söyləməklə məşğuldurlar. Hətta müxalifətdaxili fikir ayrılığı olan məsələlərdə belə onlar bir araya gəlib hansısa məsələni müzakirə edə bilmirlər. Dəfələrlə şahidi olmuşuq ki, radikalllar bir-birini debata çağırıb, amma son nəticədə bu baş tutmayıb. Axı burada da hakimiyyət yoxdur ki, onlar guya maneə yaradıldığını iddia etsinlər. Məsələn, dəfələrlə Əli Kərimli ilə "Real" partiyasının sədri İlqar Məmmədovun debatını təşkil etməyə çalışıblar, lakin alınmayıb. İndi də hansısa jurnalistlər bu təşəbbüslə onlara müraciət ediblər və sevincək halda məlumat paylaşdılar ki, iki partiya sədri arasında debat təşkil olunacaq. Ancaq İlqar Məmmədov dərhal mövqe bildirdi ki, AXCP seçkiləri boykot edəcəksə, onda belə debat ola bilər. Səbəbini də belə izah etdi ki, onlar arasında ziddiyyəti olan heç bir məsələ yoxdur. Təbii ki, İlqar Məmmədovun bu açıqlamasına debatdan yayınmaqdan başqa ad vermək olmaz. Ancaq bu heç də o anlama gəlmir ki, Əli Kərimli belə debatların tərəfdarıdır. Hətta bəzi iqtidaryönlü, konstruktiv mövqedə olan partiyaların radikallara ünvanladığı debat təklifi də havadan asılmış vəziyyətdə qalır. Yəni radikal dairələr hətta öz nəzarətlərində olan sosial şəbəkələrdəki imkanlar hesabına belə fikir mübadiləsi aparmaqdan yayınırlar. Bunun səbəbini nə ilə izah edə olar?

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə tendensiya neçə illərdir müşahidə olunur: "Hətta sosial şəbəkələrin olmadığı zamanda belə Əli Kərimli mediaya açıq adam sayılmırdı. O öz nəzarətində olan "Azadlıq" qəzetində digər müxalif partiya sədrləri haqda məlumatların dərc edilməsini istəmirdi. Həmin qəzetdən ən çox da müxalif rəqiblərinə qarşı istifadə edirdi. Radikal dairələrin namizədləri heç parlament və ya prezident seçkiləri zamanı təşkil olunan teledabatlara belə gəlmirdilər. Bunlar ancaq özləri danışıb, özləri eşitməyə öyrəniblər. Debat elədir ki, orada adamın neqativliklərini üzünə deyirlər və ya sənin danışdıqlarına bəzən əks mövqe qoyurlar. Normalda müxalif liderlər buna meylli olmalıdırlar, bizdə isə qaçırlar. Məsələn, bəzi jurnalistlər deyirlər ki, onlar radikal müxalif partiyaların heç bir funksionerindən münasibət öyrənə bilmirlər. Qarşı tərəf bunun səbəbini əksər media quruluşlarına boykot qoymaları ilə izah edir.

Mən başa düşürəm, siyasətçilər belə fərdi qərarlar qəbul edə bilərlər. Amma bunu o jurnalistə qarşı edərlər ki, nə vaxtsa, həmin siyasətçinin fikirlərini təhrif etsin. Bu olmayıbsa, yalnız "bizimlə eyni düşərgədə deyilsən, sənə danışmıram" demək siyasi nəzakətsizlikdir. Bunun başlıca səbəbini radikal müxalif çevrədəki münasibətlərin antoqonist olması, partiya sədrlərinin həddən artıq avtoritar düşüncəyə malikliyi ilə izah edə bilərəm. Özüm də bir neçə dəfə həmin düşərgədən debata adam çağırmışam, gəlməyib".

***Məhəmmədəli QƏRİBLİ***

# NATO-dan Gürcüstana "separatçı ərazilərdən imtina edin" çağırışının zəncirvari təhlükəsi və ziyanı...

**NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen Gürcüstan hakimiyyətini Abxaziya və Cənubi Osetiya olmadan alyansa qoşulmağı düşünməyə dəvət edib. Rasmussen rəsmi Tiflisi Rusiyanın nəzarəti altında öz müstəqilliklərini elan edən torpaqlardan imtina etməyə çağırıb. Rasmussenin bu fikirləri Gürcüstanda müzakirə mövzusuna çevrilib.**

Gürcüstanın Strategiya və İdarəetmə İnstitutunun rəhbəri Petr Mamradze NATO-nun keçmiş katibinin dəfələrlə belə fikir səsləndirdiyini bildirib: "Rasmussen baş katib olanda belə bu barədə danışırdı".

Politoloqun fikrincə, Rasmussen NATO-nun baş katibi postundan getdikdən sonra təşkilatın bu məsələ ilə əlaqədar mövqeyi dəyişib: "NATO-nun aparıcı ölkələri (ABŞ, İngiltərə, Almaniya, Fransa) arasında heç kim belə bir versiyanı - Gürcüstanı Abxaziya və Cənubi Osetiya olmadan alyansa qəbul etməyi düşünmür. İndi NATO-da tamamilə fərqli yanaşmalar var. Buna görə də Rasmussenin ifadəsi alyansın mövqeyini əks etdirmir".

Mamradze hesab edir ki, NATO ancaq nəzəri cəhətdən Abxaziya və Cənubi Osetiya olmadan Gürcüstanın alyansa qoşulmasını tələb edə bilər.

Hakimiyyət nümayəndələri Rasmussenin təklifini yolverilməz adlandırıb - Gürcüstan Abxaziya və Cənubi Osetiyasız NATO-ya daxil ola bilməz.

"Gürcüstan istənilən təşkilata beynəlxalq ictimaiyyət, o cümlədən də NATO tərəfindən tanınan əraziləri və sərhədləri nəzərə alınmaqla qəbul edilməlidir". Rasmussenin təklifinə parlament çoxluğunun lideri, hakim "Gürcü arzusu"nun üzvü Giya Volski belə cavab verib.

Müdafiə və təhlükəsizlik üzrə parlament komitəsinin sədri İrakli Sesişavili bildirib ki, Gürcüstanın ərazi bütövlüyü heç vaxt şübhə altına alınmamalıdır və Gürcüstan Abxaziya və Cənubi Osetiya ilə birlikdə NATO üzvü olacaq. Onun sözlərinə görə, Rasmussenin təklifini Gürcüstan hakimiyyəti rəsmi səviyyədə heç vaxt nəzərdən keçirməyəcək: "Bu mövzu rəsmi olaraq heç vaxt nəzərdən keçirilməyib, ancaq ekspetlərin rəyləri səviyyəsində".



Keçmiş müdafiə naziri Tina Xidaşelinin sözlərinə görə, Gürcüstanın dostlarından heç biri heç vaxt deməyib ki, Gürcüstan Abxaziya və Cənubi Osetiyasız NATO-ya üzv olsun. Xidaşelinin sözlərinə görə, Anders Foq Rasmussen deyib ki, Gürcüstan işğal olunmuş ərazilər də daxil olmaqla, NATO-ya üzv ola bilər, sadəcə, alyansın nizamnaməsinin beşinci paraqrafı bu ərazilərə aid edilməyəcək.

Müxalif "Avropa Gürcüstanı" partiyasının liderlərindən biri Qiqa Bokeriya deyir ki, Anders Foq Rasmussenin təklifi Gürcüstanın maraqlarına cavab verir: "Vətəndaşlarımızı Rusiya ilə müharibə ilə qorxudan eyni adamlar (təbii ki, heç kim müharibə istəmir və ondan mümkün qədər qaçmaq lazımdır) eyni zamanda da NATO nizamnaməsinin beşinci paraqrafının Abxaziyada qüvvədə olmasının vacibliyindən danışırlar. Amma bu, müharibə deməkdir və məhz buna görə də məhz bu, Gürcüstanın NATO-ya qəbul edilməsinin bloklanması üçün arqumentə çevrilir. Rasmussenin sözləri Gürcüstanın maraqlarına cavab verir, bu halda Gürcüstanın işğal olunmamış hissəsi müdafiə olunmuş olacaq, bu da, ümumilikdə, ərazi bütövlüyünün bərpasının mümkünlüyünü artırır. Almaniya (dəqiq analogiya olmasa da) və bir sıra digər hallarda belə olub".

Gürcüstana NATO-ya üzv olmaq üçün "separatçı ərazilərdən imtina edin" çağırışının nə kimi zəncirvari təhlükəsi və ziyanı ola bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rasmussenin təklifi, ən azından, NATO Nizamnaməsinin müddəalarının nəzərə alınmaması deməkdir: "Rasmussen bunu ona görə təklif edir ki, Rusiyanın nəzarətində olan Abxaziya və Cənubi Osetiyanın yaxın perspektivdə Gürcüstanın tərkibinə qaytarılmasının müşkül olduğunu bilir. Ərazi bütövlüyü məsələsinin Gürcüstanın Alyansa üzvlüyü məsələsində maneə olmasını məqsədəuyğun hesab etmir. Gürcüstan və NATO bir-birinə lazımdır, xüsusilə NATO-nun Ukrayna və Gürcüstanı birlikdə Qara dəniz akvatoriyasına daxil etməsi planları fonunda bu məsələnin yaxın zamanlarda öz həllini tapması zəruridir. Rasmussen, əslində, üzvlük üçün real çıxış yolu göstərib. Gürcüstan və onun kimi problemi olan ölkələr çətin seçim qarşısında qalıblar: ya ərazi bütövlüyündən imtina etmək, ya da NATO üzvlüyündən".

Politoloqun sözlərinə görə, NATO-ya üzvlük Gürcüstan və Ukrayna üçün etibarlı təhlükəsizlik çətiri, müstəqilliyin qarant sütunlarından biri demək olardı: "Rasmussenin təklifi, əlbəttə, Rusiyanın postsovet məkanında yaratdığı status-kvonun nəticələrini aradan qaldırmaq yox, vəziyyətdən alternativ çıxış yolu deməkdir. Lakin bu həm də Ukrayna, Moldova kimi Gürcüstanla oxşar problemi olan ölkələrə ərazi itkisi ilə barışmaq, bunun müqabilində NATO-ya üzvlüklə mükafatlandırılmaq vədidir. Təbii ki, bu, realist, lakin təqdirəlayiq olmayan yanaşmadır.

Görünür, Qərb Rusiya ilə ərazi bütövlüyü məsələsində üz-üzə gəlməyin mürəkkəbliyini anlayaraq, ona NATO-nun genişlənməsi, Alyansın bilavasitə sərhədlərində dayanması ilə qarşı durmaq istəyir. Bu həm də NATO-nun və Qərbin postsovet məkanındakı digər ərazi bütövlüyü pozulmuş ölkələrə görə bu məsələ üzrə Rusiya ilə qarşıdurmaya getmək niyyətinin olmadığını göstərir. Xüsusilə də Rusiyanın "Böyük Səkkizliyə" qayıtması barədə razılaşmanın olduğu yaxınlaşma onu göstərir ki, Qərb və Rusiya postsovet məkanında müəyyən məsələlərdə kondominium prinsipi əsasında idarəetmə məsələsində razılaşıblar.

**Yaxud NATO keçmiş baş katibi Rusiyaya onun bütün təzyiqlərinə baxmayaraq, postsovet ölkələrinin ərazi bütövlüyü bərpa edilmədən də, lazım bildiyi ölkələri Alyansa qəbul edə biləcəyi mesajı vermiş olur. Azərbaycan Qoşulmayanlar Hərəkatında iştirak edən dövlət olaraq NATO üzvlüyünə iddialı olmasa da, hər halda, qonşu ölkələrin hamılıqla qəbul olunmuş ərazisinin itirilməsilə barışmağa çağırış təhlükəli tendensiyadır".**

*Məhəmmədəli*
***QƏRİBLİ***

# "Amulsar" olayı Paşinyanın onsuz da zəif beynəlxalq mövqelərini silkələdi...

**Son günlərdə Ermənistanla bağlı baş verən hadisələr fonunda, şübhəsiz ki, ən çox diqqət çəkən məqamlardan biri "Amulsar" qızıl mədənində baş verənlərdir. Əhalinin çoxsaylı etirazlarına baxmayaraq, hakimiyyət bu mədənin işlənməsində israrlıdır. Artıq iş o yerə çatıb ki, yaranmış durumda sırf "Amulsar" mədəni ilə bağlı baş nazir Nikol Paşinyana qarşı ölkə miqyasında etiraz aksiyalarının başlanması gözlənir.**

Paşinyan isə mövqeyindən geri çəkilmir və bu durumda əhali onun istefaya çıxması üçün daha genişmiqyaslı aksiyalara hazırlıq aparır.

Məsələnin digər maraqlı tərəfi isə beynəlxalq miqyasda da "Amulsar" məsələsinə görə Paşinyana qarşı mövqe sərgilənməsidir. Nüfuzlu beynəlxalq media qurumlarının mövqeyinə diqqət yetirdikdə bəlli olur ki, bu məsələdə Paşinyanın mövqeyi kəskin tənqid hədəfidir. Məsələn, elə bu günlərdə ABŞ-ın "Foreign Policy News" portalında dərc edilən yazıdan bəlli olur ki, "Amulsar" mədənində işlərin davam etməsi faciəvi ekoloji problemlərə gətirib çıxaracaq. Bildirilir ki, Arpa və Vorotan çayları arasında, Cermux kurort şəhərinin 13 kilometrliyində yerləşən "Amulsar" yatağının istismarı zamanı Cermux yatağı yaxınlığında olan yeraltı sular, daha sonra isə əsas su mənbəyi olan Göyçə gölü həyat üçün təhlükəli olan maddələrlə çirklənəcək və bu, həlli mümkün olmayan fəlakətə səbəb ola bilər: "Məhz bu səbəbdən ekspert rəyi alınana qədər "Amulsar" qızıl mədənində işlər dayandırılıb və "Earth Link & Advanced Resources Development" (ELARD) şirkətinə kompleks ekspertiza aparmaq üçün vəsait ayrılıb. Lakin ELARD şirkətinin gəldiyi nəticə Ermənistan rəhbərliyinin istəyi ilə üst-üstə düşüb və bu yataqların istismar edilməsi qeyri-təhlükəli kimi qiymətləndirilib. ELARD bildirib ki, yataqların istismarı zamanı təhlükələr minimal və aradan qaldırıla bilən-dir. Buna baxmayaraq, dünyanın aparıcı beyin mərkəzlərinin üç əməkdaşı Ermənistandan olan həmkarları Harun Branozyanla birgə layihənin ətraf mühitə təsiri sənədini incələyərək belə qərara gəlib ki, "Amulsar" qızıl yatağının istismarı layihəsi ətraf mühit üçün çox zərərlidir. Layihə nəinki Cermuxətrafı bölgələrə və Göyçə gölünə, həmçinin Azərbaycan ərazisindən keçən çayların çirklənməsinə şərait yaradır. Layihənin başlanması ilə asid, metal, sulfat, nitrat və digər həyat üçün təhlükəli zərərli maddələr Arpa, Darb və Vorotan çaylarına, Kerçut su anbarına axacaq, bəlkə də daha çox müddətdə axıdılması baş verəcək ki, bu da nəticədə ekosistemin məhvinə şərait yaradacaq. "Lydian" şirkətinin nəzərdə tutduğu tədbirlər yetərli deyil və su hövzələrinin çirklənməməsi risqini qarşılamır. Adıçəkilən Arpa çayının Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində, Vorotan çayının isə Ermənistan tərəfdən işğal edilmiş Azərbaycan torpaqlarında Araz çayı ilə birləşməsi o deməkdir ki, qızıl yataqlarının istismarı nəticəsində çirklənmiş su Araz vasitəsilə Azərbaycanın əsas içməli su ehtiyatı olan Kür çayına, oradan isə neft və nərə balıqları ilə zəngin Xəzər dənizinə axıdılacaq. Belə vəziyyət bütün Xəzər hövzəsi ölkələri üçün də təhlükəli olacaq. Bu artıq problemi iki qonşu ölkə çərçivəsindən çıxaracaq və Amazon meşələrinin yanması kimi dünya miqyaslı edəcək. Bu mənada, "Amulsar" qızıl mədəninin yarada biləcəyi ekoloji fəsad iqlim dəyişikliyi ilə bağlı böyük dövlətlərin ortaya qoyduğu məqsədlərin əleyhinə fəaliyyət kimi qiymətləndirilə bilər".

Rusiyanın "Nezavisimaya gazeta" mətbu orqanı da məsələyə eyni prizmadan yanaşır: "Kurort şəhəri Cermuxun sakinləri və ekoloji



fəallar "Amulsar" mədəni ilə bağlı məsələni həll etmək üçün Ermənistan hökumətinə senytabrın 20-dək vaxt veriblər. Hakimiyyət mədənin istismarını 20 sentyabra doğru yasaqlamasa, əhali vətəndaş itaətsizliyi aksiyasına başlayacaq. Həqiqətdə bu artıq gedir, Nikol Paşinyan isə Cermux sakinlərini mədənin yollarını bağlamağı dayandırmağa çağırıb.

Danışıqların predmeti artıq yoxdur. Cermuxun və yan-yörəsinin sakinləri son günlərdə o qədər qəti mövqe tutublar ki, müzakirə etməyə nəsə yoxdur. Amma Ermənistan hökuməti hesab edir ki, qızıl ehtiyatına görə respublikanın ikinci mədəninin istismarı ekoloji fəlakətlə təhdid etmir. Lakin Cermux sakinləri öz mövqelərini yalnız sərtləşdiriblər: bütün infrastrukturu blokadaya alaraq və az qala, birbaşa təxribat hədəsi gəlməklə hakimiyyətə seçim qoymadan mədənin istismarını təcili durdurmağı tələb edirlər. Amma etirazın qeyri-formal lideri, ekoloq Şirak Buniatyan bu zaman aksiyaların dinc formasından - tətillərdən və hətta yerli məktəblilərin dərslərə mütəşəkkil gəlməyəcəyindən danışır. Anca bununla yanaşı o, eyham da vurub: hökumət güc işlətməyə çalışarsa, tezliklə özü buna təəssüflənəcək. Buniatyan bildirib: "Biz inqilaba inanırdıq. İnqilab nəticəsində hakimiyyətə gələn adamlar antixalq qərar alsalar, bizim hamımıza böyük zərbə olacaq".

"Amulsar"la bağlı münaqişə bəzi partiyaların spekulyasiya predmeti və populist hərəkəti olmaqla ölkənin siyasi meydanında əks olunmaya bilməzdi. Bəziləri cermuxluları hökumətə təslim olmamağa çağıraraq hakimiyyətin yadına salırlar ki, Ermənistanı yalnız xalqın dəstəyi sayəsində yönəldiblər və indi "bu xalqı dinləmək və mənəvi borcu qaytarmağın vaxtıdır". Başqaları hökuməti prinsipsizlikdə qınayır - indiki nazirlər müxalifətdə olarkən qabaqkı hökumətdən "Amulsar"da hasilatı dayandırmağı tələb edib, bu gün isə bunu özləri edirlər. "Məxməri inqilab" üzrə Paşinyanın bu yaxınlara qədər situativ müttəfiqi, "Çiçəklənən Ermənistan" partiyasının lideri Qagik Tsarukyan hökumətə xalqın iradəsini yubanmadan yerinə yetirməyi, "Amulsar"da işləri yekunlaşdırmağı və bütün mübahisələri bitirməyi məsləhət görüb. Sement zavodunun və dağ mədəni sahəsində müəssisələrin sahibi, milyoner Tsarukyan bildirib: "Adamlar hesab etsələr ki, mənim müəssisələrim çevrəyə ziyan vurur, mən özüm onları bağlamağa hazıram".

Aydındır ki, bulanıq suda balıq tutmaq həvəskarları həmişə tapılır, amma Paşinyanın özü və nazirləri dəfələrlə vurğulayıblar ki, "Amulsar" mədəni üzrə qərar dəyişiləcək, ekoloqlar çevrəyə ciddi təhlükənin varlığı haqda, heç olmasa, nəzəri əsaslandırma təqdim etsələr, hasilat əlüstü dayandırılacaq. Bu hələlik yoxdur, amma gümanlar və Ermənistan gerçəkliyindənsə fantastik blokbasterlərə daha çox bənzəyən qiyamət gününün təsvirləri var. Ekspert David Petrosyan durumu şərh edərək bildirib ki, hüquqi baxımdan hökumətin mövqeyi güclüdür. Amma bununla yanaşı, ekoloji ekspertizada bir neçə parametr yoxdur, buna görə də obyektiv incələmə vermək çətindir. Hələlik Göyçə gölünə və onu qidalandıran Vorotan çayına deyil, onun bəzi xırda qollarına təhlükə var. Amma keçmiş hökumət də maraqlıdır ki, yataq ətrafında meydana çıxan gərginlik qurbanlar və ziyan çəkənlər olmaqla sərt münaqişəyə, ən yaxşısı, "ekoloqlar" və asayişi qoruyanlar arasında toqquşmaya keçsin. Deyilməlidir ki, hələlik məsələ buna da gedir.

"Keçmişlər"ə Paşinyanın reytinqini vurmaq lazımdır, onlar ekoloqlara da buna görə pul ödəyirlər. Durumun baş qarışdırıcıları keçmiş prezidentlər - dedi-qoduların kurort şəhəri Cermux üzərində bütün müalicə evləri, sanatoriyalar və otellərə vəkalətli nəzarəti ayağına yazdığı Serj Sarkisyanın və Robert Köçəryanın çevrəsi və qohumlarıdır". Hesab edilir ki, yaranmış vəziyyətdə "Amulsar" məsələsi getdikcə Paşinyan üçün daha ciddi problem olacaq və ona xaricdən də təzyiqlər artacaq. Çünki bu mədən daha böyük məkan üçün potensial təhdid mənbəyidir.

***Nahid SALAYEV***

# Paşinyan aprel döyüşlərinin iştirakçılarının istintaqına başladı - hədəf...

## **Daşdəmir Əliyev:** *"Ermənilər həmin hadisələri araşdırmaqla həm də özləri üçün yaxşı bir dərs çıxarmalıdırlar"*

**Erməni KİV-i məlumat yayıb ki, Ermənistanın parlament komissiyası 2016-cı il aprel döyüşləri zamanı baş verən hadisələri araşdırmaq məqsədilə hərbçiləri dindirəcək. Bildirilir ki, ilk növbədə, əsas döyüşlərin baş verdiyi yerlərdə olan hərbi personal çağırılacaq və dindirilməyə adi əsgərlərlə yanaşı, zabitlər də dəvət olunublar.**

*"Paşinyan bu hadisədən də öz maraqları, siyasi opponentlərinə zərbə vurmaq üçün istifadə edir"*

O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyinin əməliyyat idarəsi rəhbərinin keçmiş müavinləri artıq dindiriliblər. Komissiya bundan əvvəl qapalı iclaslar keçirib. Deyilənə görə, sabiq prezident Serj Sarkisyan da sorğu-sual ediləcək.

Qeyd edək ki, aprel döyüşlərində sarsıdıcı zərbə alan Ermənistan tərəfində məğlubiyyətin səbəbini araşdırmaq üçün bu ilin may ayında parlament komissiyası yaradılıb. Paşinyan Azərbaycanın qələbəsi ilə yekunlaşan aprel döyüşlərini təftiş etməklə hansı hədəfə çatmaq istəyir?

Hərbi ekspert Daşdəmir Əliyev "Bak-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin hadisələrdə nəinki Ermənistan, bütün dünya Azərbaycanın nəyə qadır olduğunu gördü: "Sirr deyil ki, aprel döyüşlərində onlar əlavə kontingentdən istifadə etdilər. Yəni Dağlıq Qarabağda cəmləşən ordu ilə nəyəsə nail ola bilmədilər. Paşinyan indi həmin hadisələri ona görə araşdırır ki, bəs indiyə qədər ordu üçün xərclənən pullar hara gedib? Çünki ortada nəticə var. Azərbaycan Ordusu bir həmləsi ilə onların bütün cəbhə xəttini yardı və xeyli irəlilədi. Aprel döyüşlərinin yarımçıq saxlanması böyük güclərin məsələyə müdaxiləsi nəticəsində oldu. Azərbaycan könülü olaraq dayanmadı. Bütün cəbhə boyu biz irəliləyə bildik. Yəni həmin həmlə yalnız bir istiqaməti əhatə etmirdi. Uğurlu əməliyyatla sübut olundu ki, ermənilərin keçilməz sədd adlandırdıqları müdafiə istehkamları, əslində, adam aldatmaq üçün imiş. Azərbaycan Ordusu onları çox asanlıqla keçə bildi. Bununla bir daha sübut olunur ki, orada Ermənistan əsgərləri vuruşub. Əslində, Ermənistanda belə bir araşdırmanın aparılması həm də maraqlı bir məsələni ortaya qoyur. Bəs deyirlər "DQR" müstəqildir, özünün "ordusu" var? Onda isə niyə həmin araşdırma Ermənistanda aparılır? Bu həm də ermənilərin özlərini ifşası sayılır. Onlar həm də artıq bəzi həqiqətləri etiraf etməyə məcburdurlar.



Bunu can verən ölünün can üstəki son çabalarına bənzədirəm. Xeyri yoxdur, bizim mübarizəmiz haqdır. Cənab Ali Baş Komandanın əmrilə yenidən aprel zəfərini təkrarlaya bilərik. Ermənilər həmin hadisələri araşdırmaqla həm də özləri üçün yaxşı bir dərs çıxarmalıdırlar. Bilməlidirlər ki, işğaldan əl çəkməsələr, onların burunları yenə əziləcək. Paşinyan bu hadisədən də öz maraqları, siyasi opponentlərinə zərbə vurmaq üçün istifadə edir. Aprel döyüşlərində olan məğlubiyyəti sırf onların günahı kimi təsdiqlətməyə çalışır".

**Məhəmmədəli QƏRİBLİ**

# Ermənilər özləri KTMT-də Azərbaycan və Ermənistanın təsir gücləri barədə maraqlı müqayisə aparmağa başlayıblar

## **Fikrət Sadıqov:** *"Babacanyan, əslində, mövcud reallığı etiraf edib"*

**Azərbaycan KTMT üzvü olmadan bu təşkilatda Ermənistandan daha böyük nüfuza sahibdir. Bunu Ermənistan parlamentinin deputatı Arman Babacanyan deyib. Onun fikrincə, Azərbaycana hörmət daha çoxdur: "Azərbaycanın təşkilatdakı mövcudluğunu Belarus və Qazaxıstan təmin edir.**

*"Azərbaycan KTMT ölkələrindən özünə lazım olan istənilən silahı alır və bununla bağlı hansısa məhdudiyyət yoxdur"*

KTMT-də bizim yeganə müttəfiqimiz hələlik Rusiyadır. Rusiya isə Ermənistanla müttəfiqlik münasibətlərini siyasi və geosiyasi konyunkturadan irəli gələrək icra edir. Bununla belə, Ermənistan Rusiya üçün hətta öz dövlət maraqları hesabına hər şeyə hazırdır. Biz Rusiyaya hər şeyi veririk, əvəzində isə heç nə almırıq. Biz KTMT-də qalmağa və bu strukturun maraqlarına Rusiyanın bizi cəzalandırmaması üçün xidmət etməyə davam edirik".

Ümumiyyətlə, bu mövzu gündəmə gələndən sonra Ermənistanda bir narahatlıq yaşanmaqdadır. Onlar narahatdırlar ki, Azərbaycan hansısa statusda qurumda təmsil oluna bilər. Hansı ki, Azərbaycanın belə bir niyyəti yoxdur. Bununla belə, Azərbaycan KTMT-də təmsil olunmasa belə, qurum üzvü olan ölkələr arasında Ermənistandan daha nüfuzludur və bunu artıq ermənilər də etiraf edirlər. Çünki KTMT yalnız Ermənistandan ibarət deyil. Təşkilatda Rusiya, Qazaxıstan, Belarus, Tacikistan, Qırğızıstan da təmsil olunur ki, bu ölkələrin hər biri ilə də Azərbaycanın dostluq və tərəfdaşlıq münasibətləri var. Təşkilatın qeyd edilən üzv dövlətləri etibarlı, layiqli dost və tərəfdaş ölkə olaraq Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdırlar.

O baxımdan erməni deputatın məlum müqayisəsini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Azərbaycan KTMT üzvü olmasa da, həqiqətən də təşkilatda təmsil olunan ölkələr arasında böyük nüfuza malikdir: "Qurumda təmsil olunan ölkələr Azərbaycanla daha sıx əlaqələrə malikdir, nəinki Ermənistanla. Babacanyan, əslində, mövcud reallığı etiraf edib. Hərçənd, Ermənistan rəsmiləri bunu bilsələr də, etiraf etməyə cəsarətləri çatmır. Baxmayaraq ki, onlar da bunun fərqindədirlər. Bununla yanaşı, Azərbaycanın hərbi potensialı Ermənistandan qat-qat yüksəkdir. Azərbaycan KTMT ölkələrindən özünə lazım olan istənilən silahı alır və bununla bağlı hansısa məhdudiyyət yoxdur. Azərbaycan bir sıra silahları məhz KTMT üzvü olan Rusiya və Belarusdan alır. Bütün bunlar Azərbaycanın sahib olduğu hörmətin göstəricisidir. Bizim bu silahları almaqda niyyətimiz aydındır. O da torpaqlarımızı işğaldan azad etməkdir. Bununla bağlı bizim kifayət qədər yüksək potensialımız var ki, torpaqları azad edək. Heç şübhəsiz ki, əlverişli beynəlxalq şərait yaranan kimi Azərbaycan öz ərazilərini işğaldan azad edəcək. Buna kiminsə şübhəsi olmasın. Ancaq hələlik Azərbaycan diplomatik vasitələrlə bu problemi həll etməyə çalışır".




**Vidadi ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanda böyük etiraf - "Bizə güclənən təzyiqlər məhz Qarabağ problemi ilə bağlıdır..."

## *Qarabağ münaqişəsi ətrafında Azərbaycanın istədiyi geosiyasi durum tam yetişir...*

**Xarici siyasət sahəsində işğalçı Ermənistanın üzləşdiyi çoxsaylı problemlər bu ölkənin getdikcə daha böyük çətinliklərlə qarşılaşmasına gətirib çıxarır. Söhbət Ermənistana yönəlik təzyiqlərin artmasından gedir ki, bunun da əsas təsirlərindən birinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olması proqnozlaşdırılır. Bunu Respublika partiyasının sədr müavini Armen Aşotyan da etiraf edir.**

Aşotyan bildirir ki, Ermənistanın xarici siyasət vektorlarının dəhlizi regional xüsusiyyətlərdən çıxış etməklə çox dardır. O bildirib ki, bəziləri Paşinyanın istəyi və ya razılığı ilə Ermənistanı geopolitik oyuna cəlb etməyə çalışır: "Utancvericidir, lakin bu bir faktdır ki, Ermənistanın siyasi arenasında Avropa İttifaqı strukturları ilə daha operativ, intensiv və məzmunlu iş görən biri yoxdur. Qərblə əlaqələrimiz hər zaman xarici siyasətin zənginləşdirilməsi, balanslaşdırılması, daxili siyasi gündəmin və islahatların görünən, hiss olunan, mövzulu komponenti olub. Heç bir geopolitik mərkəz müasir dünyada təhlükəsizlikdən tutumuş iqtisadiyyata, təhsilə qədər Ermənistan problemlərini həll etmək gücündə deyil. Hiss edirəm ki, bəziləri bizi qlobal güclərin toqquşma sahəsinə çevirməklə ölkənin fəaliyyət göstərən rəhbərliyinin istəyi və ya razılığı ilə geopolitik oyuna cəlb etməyə çalışır. Ölkəmi sınağa çəkməyin. Sizin daxili oyuncaqlarınız və zərbələriniz bir tərəfə, xalqın və dövlətin taleyi ilə xəyanətkar oyunlar oynamayın. Sonra deməyin ki, xəbərdarlıq etməmişəm. İndilikdə isə atılan addımlar Ermənistanı zərbə altında qoyur. Bəs hakimiyyət bunun ölkəyə, Dağlıq Qarabağa necə təsir edəcəyini düşünürmü? Görünür, yox. Amma belə burasındadır ki, yaranmış vəziyyət Qarabağ məsələsində Azərbaycanın maraqlarına işləyir".

Ekspertlər də hesab edir ki, Ermənistanda getdikcə daha da gərginləşən ABŞ-Rusiya münasibətləri Nikol Paşinyan iqtidarının daha zəif duruma düşməsi ilə nəticələnəcək. Çünki hər iki tərəf öz məqsədinə nail olmaq üçün təzyiq alətlərindən geniş istifadə edir. Ermənistanla münasibətlərin pisləşməsi nəticəsində Rusiya və ABŞ isə diqqətini Azərbaycanla əlaqələri möhkəmləndirməyə yönəldir. Ermənistanın "Qraparak" nəşri yazır ki, belə bir vaxtda İrəvan Tehranı da Bakıya uduzur. Buna əsas səbəb Ermənistanın İrana qarşı siyasətdə yol verdiyi çoxsaylı yanlışlıqlardır. Nəşrə görə, Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın son mətbuat konfransında səslənən fikirlər də bunun təsdiqi sayıla bilər: "Həmin mətbuat konfransında nazir "məxməri inqilab" ifadəsini dəfələrlə vurğulayıb. Görünür, xüsusilə inqilabın məxməri olması Mnatsakanyanın çox xoşuna gəlir. Mnatsakanyanın qeyd etdiyi "məxməri inqilab", onu Ermənistan xarici işlər naziri etməsindən əlavə, xarici siyasətə əlavə inqilabi dəyişikliklər də gətirib. Nümunə kimi Rusiyanın istəyi ilə Suriyaya humanitar hərbi heyət göndərilməsini göstərmək olar. Ermənistanın keçmiş hakimiyyəti bunun mənfi təsirlərini nəzərə alaraq, uzun müddət Suriyaya qoşun göndərməmək üçün ruslara müqavimət göstərib. Ancaq "məxməri inqilab"dan ruhlanan hakimiyyət Paşinyan və Mnatsakanyanın rəhbərliyi altında keçmiş hakimiyyətə qarşı çıxmağa qərar verərək, Rusiyanın istəyi naminə Suriyaya humanitar qoşun göndərməyi qərara aldı. Bu qərarın verilməsinə səbəb rusların xoşuna gəlmək, onların rəğbətini qazanmaq olub. Ancaq göründüyü kimi, ruslar bu özünü "fərdi qurbanvermə" addımını lazımi şəkildə dəyərləndirmir. Əksinə, ruslara görə, atılan bu addım amerikalıların xoşuna gəlməyib və hər dəfə bunun baha başa gələcəyinə dair davamlı işarıclar göndərməkdədirlər. Belə vəziyyətdə hakimiyyətin yol verdiyi ciddi bir yanlışlıq İran amili ilə bağlıdır. Görünür, Rusiya və ABŞ-dan sonra hakimiyyət İranı da Ermənistana münasibətdə fərqli davranmağa vadar edəcək". Nəşr bildirir ki, Ermənistan hakimiyyəti də hər iki supergücü razı salmaqla, tarazlığı qorumaq naminə İran məsləsində amerikalılara güzəştə getməyi qərara alıb və nəticədə Suriyaya qoşun göndərilməsini sığortalamaq üçün Ermənistanın İrana qarşı müəyyən sanksiyalarına qoşulub. Qeyd olunur ki, məhz bu amil İranın tədricən Ermənistandan üz döndərməsinə gətirib çıxarır. O da diqqətə çatdırılır ki, bu durumda İranın Azərbaycanla artan işbirliyi mütləq mənada Qarabağ məsələsinə də təsir edərək, Tehranın daha çox Bakının yanında yer almasına gətirib çıxaracaq. "Qraparak" yazır ki, İrəvanın Tehrana qarşı çıxmasına baxmayaraq, ABŞ da Rusiya kimi Ermənistan rəhbərliyinin addımlarını təqdir etmir. Erməni siyasi ekspert Aram Armatuni da məsələyə eyni prizmadan yanaşır. O vurğulayır ki, ABŞ-a yaxınlaşmaq üçün İrəvanın atdığı addımlar Vaşinqtonu qane etmir. Ekspert vurğulayır ki, bu mənada, Paşinyanın BMT Baş Assambleyasının iclasında iştirak etmək məqsədilə həyata keçirilən ABŞ səfərinin siyasi təsiri olmayacaq. Onun sözlərinə görə, Ermənistan-ABŞ siyasi münasibətləri kontekstində əsas problem göründüyündən daha genişdir: "NATO üzvü olan Türkiyənin Qafqazdakı xüsusi rolunu və maraqlarını, Ermənistanla müxtəlif əlaqələri olan Rusiyanı, ABŞ-la qarşıdurmada olan və problemlər yaşayan İranı, eyni zamanda Ermənistan üçün İranın əhəmiyyətini və digər kifayət qədər incə problemləri və məqamları nəzərə alsaq, bu proses olduqca mürəkkəbdir". Armatuni bildirib ki, bu vəziyyətdə Ermənistan daha çox uduzan tərəfə çevrilir. Bütün bunlar regionda yaranmaqda olan yeni geosiyasi durumda Ermənistanın daha zəif vəziyyətə düşməkdə olduğunu aydın nümayiş etdirir.

Digər tərəfdən ekspertlər qeyd edir ki, geosiyasi vəziyyətlə yanaşı, Paşinyan hakimiyyətinin Qarabağ məsələsində bir-birinə zidd olaraq səsləndirdiyi mövqelər də regionda marağı olan böyük güclər tərəfindən mənfi qarşılanır. Bunu rus ekspert Stanislav Tarasov da təsdiq edir. O bildirir ki, nə Rusiya, nə Fransa, nə də Birləşmiş Ştatlar Qarabağ münaqişəsi ilə bağlı Paşinyanın son açıqlamalarından məmnundur: "Bu gün hamı diqqətlə "birləşmə" həyata keçirməyə cəhd edən Paşinyanın fəaliyyətini izləyir. Heç kim onun mövqeyini başa düşə bilmir. Paşinyan bir tərəfdən qeyd edir ki, Qarabağ sakinləri onu seçmədiyinə görə Qarabağın adından danışa bilməz, digər tərəfdən "birləşmə" haqqında danışaraq, "Qarabağ Ermənistandır, vəssalam", deyə bəyanat verir. Belə vəziyyət həmsədr ölkələr tərəfindən də mənfi qarşılanır. Onlar məsələnin həlli istiqamətində indiyə qədər formalaşan bazanın, formatın məhv olmasını istəmir. Bu durumda bunları pozan Paşinyandır və bu da Ermənistan üçün müsbət heç nə vəd etmir. Azərbaycanlılar isə, yaranmış vəziyyətdən istifadə edərək, hələ hücum etməyə hazırlaşmır. Onlar Ermənistanda baş verən hadisələri izləyir, Qarabağda baş tutacaq "seçkiləri" gözləyirlər. Onlar başa düşür ki, Paşinyan Qarabağı zəiflədir. "Qarabağ klanı" Qarabağda hələ güclüdür, Paşinyan isə zəifdir. O, Qarabağı zəiflədəcək və həmin vaxtda Bakı öz problemlərini asanlıqla həll edə bilər. Ermənilər özləri-özlərini məhv edir. Bu təəccüblü və çox qəribədir. Azərbaycanlılar yox, ermənilər özləri-özlərini məhv edir. Paşinyanın çıxışına baxsanız, burada kifayət qədər ziddiyyətləi məqamlar görə bilərsiniz. Ermənistan Rusiyanın tərəfdaşı və müttəfiqimizdir. Amma Rusiyada Ermənistan hakimiyyətinin addımlarından ciddi narazılıq var.

İkincisi, biz korrekt ola bilmərik, ona görə ki, ermənilər bizi müharibəyə çəkməyə çalışır. Amma bilinmədir ki, Rusiya bu müharibəyə cəlb olunmayacaq və onun Qarabağ məsələsində öz mövqeyi var. Amma ermənilər hesab edir ki, onların əvəzinə biz döyüşəcəyik. Belə bir vəziyyətdə necə korrekt ola bilərik? Biz Ermənistanın özünü bu və ya digər şəkildə aparmasını tələb etmirik. Biz tələb edirik ki, Ermənistan Qarabağ məsələsində öz mövqeyini aydın şəkildə ifadə etsin.

Düzdür, superdövlətlər daxili və xarici auitoriya üçün hesablanmış bəyanatlar verə bilər. Amma Ermənistan belə ölkə deyil axı. Ermənistanda cəmi 2 milyon erməni yaşayır, qalanları xaricdədir. Diaspora daxili, yoxsa xarici auditoriyadır? Bizə dünyanın bütün erməniləri baxır və izləyir. Rusiyadakı ermənilər də baxır və nə baş verdiyini dərk edə bilmirlər. Biz Rusiyadakı ermənilərlə təmasda oluruq, onların da Ermənistanda nə baş verdiyini anlamadıqlarını görürük. Hansı daxili auditoriyadan söhbət gedə bilər? Mənim proqnozlarım çox aydındır. Qarabağı zəiflətsəniz, Azərbaycan sizi müharibəsiz alacaq. Bütün rayonları və Şuşanı azad edəcək. Həmin vaxt qaçqınların axını başlayacaq.

Biz bunu istəmirik, ancaq belə olacaq. Paradoks ondadır ki, Paşinyan öz inqilabı ilə 10 il gecikib. İndi o heç kimə lazım deyil. Demokratiya kimə lazımdır? Heç bir inqilab baş verməyib. Sadəcə hakimiyyət dəyişikliyi baş verib. Real tərəfdaşlar və müttəfiqlər tapmaq lazımdır. Real problemləri həll etmək vacibdir, yoxsa inqilab ixracı ilə məşğul olmaq lazım deyil. Ermənistan bu gedişlə Qarabağ məsələsində daha tez uduzacaq. Azərbaycanın mövqeyi məlumdur. Bu ərazilər ona məxsusdur. Bu, Ermənistanın xoşuna gəlir-gəlmir, başqa məsələdir. Amma görünən budur ki, Azərbaycan istəyinə sürətlə yaxınlaşır". Bütün bunlar Qarabağ münaqişəsi ətrafında yaranan geosiyasi vəziyyətin artıq daha böyük sürətlə Azərbaycanın lehinə dəyişdiyini göstərir. Şübhəsiz ki, belə durum yaxın tezlikdə konfliktin çözümü istiqamətində mühüm yeniliklərin olmasını da ististna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Dahi şair, mütəfəkkir İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsrlərdir insanların şüurunda, mənəvi dünyasında özünə ölməzlik qazanıb. İnsanlıq fəlsəfəsinin qatlarının açıldığı bu qəzəl indiyə qədər dəfələrlə səsləndirilib. Qəzəl janrının incilərindən olan "Sığmazam" qəzəli Azərbaycan əsilli dünyaşöhrətli müğənni Sami Yusifin ifasında yenidən gündəmə gəlib və gerçək trendə çevrilib.

# Sosial şəbəkə qaragüruhu trendə çevrilən Nəsimi kompozisiyasını da hədəfə alır

## Teymur Kərimli: "Belə möhtəşəm bir ifanın sosial şəbəkələrdə hədəfə alınması qəbuledilməzdir"



Məlum olduğu kimi, Sami Yusuf Nəsiminin "Sığmazam" qəzəli əsasında yeddi dəqiqəlik kompozisiya hazırlayıb. Kompozisiya Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi və Heydər Əliyev Fondunun dəstəyilə ərsəyə gəlib.

Sami Yusuf kompozisiyanı Bakıda Heydər Əliyev Mərkəzində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində canlı ifa edib.

Müğənnini azərbaycanlı muğam ifaçısı Təyyar Bayramov və aşıq Samirə müşayiət ediblər. Ekran işinin yaradıcı prodüsseri və rejissoru Andrey Boltenko, kompozisiyanın bəstəkarlığını isə Sami Yusuf özü edib.

Kompozisiya böyük maraqla qarşılanıb. "YouTube.com" portalında yerləşdirilən videoya 15 saat ərzində 100 mindən çox baxış olub.

Azərbaycan sazının, muğamının müşayiətilə ifa edilən kompozisiya, sözün həqiqi mənasında, bir Azərbaycan brendinə çevrilib. Bu gün "Sığmazam" kompozisiyası nəinki Azərbaycanda, eləcə də dünyanın başa ölkələrində böyük maraqla qarşılanıb. Azərbaycan musiqisinin bu böyük uğurunu təəssüf ki, hamı həzm edə bilmir. Sosial şəbəkələrdə bir qrup qaragüruh qüvvələr "həmrəy" olaraq kompozisiyaya qarşı ciddi hücumlara başlayaraq, onun ifaçısının guya bu əsəri yüksək səviyyədə ifa etmədiyini iddia edirlər. Bəziləri yazırlar ki, bu əsər S.Yusifin ifasında pis alınıb, bu qəzəli xalq artisti Alim Qasımov ifa etsəydi, daha effektiv olardı. Bundan başqa, bəziləri S.Yusifin ifasını "molla kimi oxuyur" kimi qiymətləndirib. Sosial şəbəkələrdə bəzilərinin bu möhtəşəm kompozisiyaya qarşı qara piar aparması cəmiyyətdə, mədəniyyət cameəsində müsbət qarşılanmır. Yazılanlar xüsusən də Nəsimişünas alimlərin narazılığına səbəb olub.

Azərbaycan Milli Elmlər Akademiyasının Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü,

> "Nəsiminin şeirindəki bu dərin mənanı Sami Yusif öz kompozisiyası ilə verə bilib"

Nəsimişünas-alim Teymur Kərimli "Bakı-Xəbər"ə bildirdi ki, "Sığmazam" qəzəli əsasında S.Yusifin hazırladığı kompozisiya, sözün həqiqi mənasında, böyük sənətkarlıq örnəyidir. S.Yusifin ifasının sosial şəbəkələrdə bəziləri tərəfindən hədəfə alınmasına pis baxdığını deyən T.Kərimli bunun yolverilməz olduğunu bildirdi: "Mənim sosial şəbəkələrdəki müzakirələrdən xəbərim yoxdur. Amma belə möhtəşəm bir ifanın sosial şəbəkələrdə hədəfə alınması qəbuledilməzdir. Onun bu kompozisiyanı "mollasayağı" oxuması ilə bağlı deyilənlər də qətiyyən həqiqətəuyğun deyil. Hər kəsin öz üslubu var və bu üslubu da Nəsimi yaradıcılığına tətbiq edəndə çox uğurlu alınıb.

S.Yusifin ifasında "Sığmazam" kompozisiyasını dinləmişəm və onun ifası hədsiz dərəcədə xoşuma gəlib. S.Yusifi həm ifaçı, həm də klassik ədəbiyyatın bilicisi kimi çox yüksək səviyyəli bir mütəxəssis hesab edirəm. O, "Sığmazam" kompozisiyasını da Nəsimiyə layiq bir səviyyədə ifa edib. Çox vaxt bizim müğənnilər Nəsiminin qəzəllərini oxuyurlar, amma başa düşmürlər, sözləri düzgün tələffüz edə bilmirlər. Ancaq bu fikirləri S.Yusif haqqında demək olmaz. O, bizim klassik ədəbiyyatın, eyni zamanda da Nəsiminin bilicisidir. S.Yusif bildiyinə, duyduğuna, o qəzəlin mahiyyətinə vardığına görə, belə bir mükəmməl əsər ortaya qoya bilib".

**T.Kərimlinin sözlərinə görə, S.Yusifin "Sığmazam" kompozisiyasını bütün dünyaya təqdim etməliyik və bunun çox effektiv nəticələri olacaq. "Bu kompozisiya musiqi, söz, humanitar fikir sahəsində bir Azərbaycan brendidir. Nəsimin bu qəzəlinin mahiyyəti nədir? Deyir ki, insan öz daxili aləmi ilə o qədər zəngindir, o, kainata sığmır. Nəsiminin şeirindəki bu dərin mənanı S.Yusif öz kompozisiyası ilə verə bilib" - deyə T.Kərimli qeyd etdi.**

*İradə SARIYEVA*

Azərbaycanda döv?t hesabına m?nzil alan v? yaşayış ş?raitini yaxşılaşdıran ail?l?rin sayı artıb. Belə ki, 2010-cu ildə Azərbaycanda 743, 2015-ci ildə 501, 2016-cı ildə 1 764, 2017-ci ildə 2 484 ailə döv?t hesabına m?nzil alıbsa, 2018-ci ildə belə ailələrin sayı 4 402-ə yüksəlib.

# Azərbaycanda dövlət hesabına mənzil alanların sayı 2010-cu illə müqayisədə azı 6 dəfə çoxalıb - 4500-ə yaxın ailə...

## Vüqar Bayramov: "Bu yöndə aparılan siyasət əhalinin mənzil təminatının daha da yaxşılaşmasına xidmət edir"



Qeyd edək ki, həmin mənzillərin 1 968-i Bakının, 2 214-i Abşeron iqtisadi rayonunun payına düşüb.

Məlumata görə, Abşeronda 1 209, Sumqayıtda 1 005 ailəyə dövlət hesabına mənzil verilib. Görünən odur ki, dövlət tərəfindən əhalinin mənzil təminatının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Bununla yanaşı, Qarabağ əlilləri və şəhid ailələri üçün dövlətin ayrıca proqramı mövcuddur ki, hər il yüzlərlə belə ailə mənzillə təmin olunur.

O da məlumdur ki, mənzil təminatı müasir ailənin mühüm problemlərindən biri hesab edilir. Xüsusilə də aztəminatlı sosial qruplar üçün mənzil sahibi olmaq ailənin maliyyə dayanıqlığının gücləndirilməsi, ailə büdcəsinin daha səmərəli idarə edilməsi, həyat şəraitinin yüksəldilməsi və digər sosial xidmətlərə çıxış imkanlarının artırılması baxımından ciddi əhəmiyyət daşıyır. Dünya təcrübəsinin təhlili göstərir ki, sosial xarakterli mənzil proqramlarında ailənin mənzil xərclərinin onların ümumi gəlirlərində payının 40-50 faizdən artıq olmaması məqsədəuyğun hesab edilir. Azərbaycanda dövlət vəsaiti hesabına mənzil sahibi olan ailələrin sayının artması dövlətin bu sahəyə göstərdiyi diqqətin nəticəsidir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Vüqar Bayramo-

> "Mənzil sahibi olanların sayının artmasını vətəndaşların ev probleminin həlli istiqamətində atılmış addım kimi qiymətləndirirəm"

vun sözlərinə görə, dövlət vəsaiti hesabına mənzil alanların sayının artması müsbət tendensiyadır: "Bu yöndə aparılan siyasət əhalinin mənzil təminatının daha da yaxşılaşmasına xidmət edir. Ona görə də bu təqdirəlayiq haldır. Ümumilikdə, dövlət tərəfindən əhalinin mənzil probleminin həlli ilə bağlı fərqli layihələr həyata keçirilir. Bu layihələr də nəticə etibarilə daha çox vətəndaşın sözügedən proqramlardan istifadə etməklə mənzil əldə etməsinə gətirib çıxarır. Nəzərə almaq lazımdır ki, artıq ölkədə sosial evlərlə bağlı layihə həyata keçirilir. Birinci mərhələdə 2 minə yaxın mənzil, daha sonra isə 3 min sosial mənzilə vətəndaşlar sahib olacaq. Ondan sonra daha 2 min mənzil istifadəyə veriləcək. O baxımdan mənzil sahibi olanların sayının artmasını vətəndaşların ev probleminin həlli istiqamətində atılmış addım kimi qiymətləndirirəm. Çünki mənzil probleminin həlli sosial baxımdan vacibdir. Hazırda kirayə mənzil fondu da formalaşmaqdadır. Bu ondan xəbər verir ki, 2023-cü ildə dövlət proqramları vasitəsilə daha çox ölkə vətəndaşının öz mənzil problemini həll etməsini müşahidə edəcəyik".

*Vidadi ORDAHALLI*

**Son dövrlərin təhlili göstərir ki, Rusiyanın ayrı-ayrı vilayətləri Azərbaycanla iqtisadi müstəvidə əməkdaşlığın genişləndirilməsinə indi xüsusi önəm verir. Bunu Rusiyanın müxtəlif vilayət rəhbərlərinin və iqtisadi sferaya rəhbərlik edən rəsmilərinin Azərbaycana intensivləşən səfərlərindən də aydın sezmək olar.**

# Rusiya vilayətlərinin Qafqazda əsas diqqəti Azərbaycana yönəlir - regionda yeni trend...

Bu fonda Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin rəhbərliyilə ölkəmizə gələn nümayəndə heyəti və onların buradakı görüşləri xüsusi diqqət cəlb edir. Belə görünür ki, Azərbaycan Rusiyanın bu vilayəti ilə də sıx iqtisadi münasibətlər quracaq. Eləcə də bu vilayətlə əməkdaşlıq fonunda ölkədə sənaye sahəsində yeni mühüm addımların atılması gözlənir.

İqtisadiyyat naziri Şahin Mustafayevin açıqlamaları da qeyd edilən istiqamətlərdə yaxın tezlikdə vacib işlərin görüləcəyini istisna etmir. Məsələn, nazir vurğulayıb ki, Azərbaycan Rusiyaya meyvə və tərəvəzin ixracını 2 dəfəyə yaxın artıra bilər: "Ötən il Azərbaycanın meyvə-tərəvəz istehsalçıları Rusiyaya 555 min ton meyvə və tərəvəz ixrac ediblər. Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası çərçivəsində aparılan təhlillə hər iki tərəf bu qənaətə gəlib ki, Azərbaycan Rusiyaya meyvə və tərəvəzin ixracını 2 dəfəyə yaxın artıra bilər. Yəni bu həcmləri təxminən 1 milyon tona çatdırmaq imkanları var".

Sverdlovsk vilayətinin Rusiyanın ən inkişaf etmiş regionlarından biri olduğunu qeyd edən Şahin Mustafayev bildirib ki, bu vilayətin böyük potensialı var: "Azərbaycan bu vilayətlə əməkdaşlıq etməkdə maraqlıdır. Tərəflər arasında artıq əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanla Rusiyanın Sverdlovsk vilayəti arasında ötən il ticarət dövriyyəsi əvvəlki illə müqayisədə təxminən iki dəfə artaraq 95 milyon dollara çatıb". Şahin Mustafayev vurğulayıb ki, Yekaterinburqda logistika mərkəzinin yaradılması bu rəqəmlərin reallaşdırılmasına öz töhfəsini verəcək. Nazir həmçinin qeyd edib ki, Azərbaycanda Rusiyanın Sverdlovsk vilayətinin Kalinin adına zavodu ilə birgə istehsal həyata keçirilə bilər. Onun sözlərinə görə, tərəflər Azərbaycanda qaldırıcı avadanlıq və kranların istehsalının təşkili istiqamətində işlər görə bilər. Xatırladaq ki, Sverdlovskdan əvvəl cari ilin iyununda Moskva vilayətinin rəhbərliyi də ölkəmizdə səfərdə olub. Həmin səfər zamanı da gündəmə gələn məsələlərdən biri məhz Azərbaycandan Rusiyaya daha çox meyvə-tərəvəzin göndərilməsi olub.

Moskva vilayətinin kənd təsərrüfatı və ərzaq məhsulları naziri Andrey Razin həmin vaxt bildirmişdi ki, Azərbaycan məhsullarına Rusiya bazarında böyük maraq var: "Bir qrup insan Rusiyada məhz Azərbaycan məhsullarına üstünlük verir. Bu planda iki ölkə arasında ticarət dövriyyəsi artmaqdadır. Tələb olunan məhsullar içərisində üstünlük meyvə-tərəvəzə verilir. Bu, Azərbaycan məhsullarının ilk öncə keyfiyyətcə tanınmasıdır. Tələb var, təklif isə artmalıdır". Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin də vurğulayır ki, ölkəsi Azərbaycandan ərzaq məhsulları idxalını artırmaq niyyətindədir. Nazir hazırda Azərbaycandan ərzaq məhsulları tədarükünün artım tempinin yaxşı səviyyədə olduğunu bildirib. Maksim Oreşkin onu da bildirib ki, Azərbaycanla Rusiya arasında çox səmərəli iqtisadi münasibətlər bərqərar olub, hazırda qarşıya müxtəlif sahələrdə çoxşaxəli layihələr həyata keçirmək vəzifəsi qoyulub: "Təqribən ilyarım əvvəl köklü dönüş əldə olunub. Bütün əlaqələrimizi, problemlərin həlli mexanizmlərini yenidən qurduq, nəticədə ticarət dövriyyəmiz sürətlə artır. Bu müsbət meyli daim gücləndirəcəyik. Hazırda qarşıya qoyulan vəzifə müxtəlif sahələrdə çoxşaxəli layihələr həyata keçirməkdir ki, qüvvələrimizi bu istiqamətə yönəldəcəyik".

Yuxarıda qeyd olunduğu kimi, Sverdlovsk vilayəti ölkəmizdə qaldırıcı avadanlıq və kranların istehsalının təşkilini də diqqətdə saxlayır. Bu istiqamətdə də artıq müsbət təcrübə var. Məsələn, məlumdur ki, Rusiya tərəfindən QAZ markalı avtomobillərin üçüncü ölkələrə ixracı üçün bünövrə olaraq qəbul edilən Hacıqabul Sənaye Məhəlləsindəki sözügedən müəssisəyə 14 milyon manat həcmində sərmayə yatırılması nəzərdə tutulub. Həmin müəssisədə "GAZel Next", "GAZel Business" yüngül tutumlu, "GAZon Next" orta tutumlu yük avtomobilləri yığılacaq. İndi eyni təcrübənin qaldırıcı avadanlıq və kranların istehsalı sahəsində də tətbiqi tamamilə mümkün sayılır. Moskvanı maraqlandıran məsələlərdən biri isə həm də məhsullarını Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarmaqdır. Rusiya üçün Azərbaycan bazarı maraqlı olduğu kimi, ölkəmiz vasitəsilə açılan digər dövlətlərin bazarları da cəlbedicidir. Oreşkin bu xüsusda qeyd edib: "Azərbaycan Rusiya məhsullarının dünya bazarına çıxmasında da böyük rol oynayır. Belə ki, Azərbaycan vasitəsilə Rusiya istehsalının İrana, oradan da Hindistana kimi yayılma imkanı var. Bu baxımdan Azərbaycan Rusiya üçün nəqliyyat-loqistika məkanına çevrilə bilər.




Bu isə iki ölkə arasında ticarət dövriyyəsinin son dərəcə artımına səbəb olacaq". Bu məqam, Rusiyanın digər vilayətləri kimi, Sverdlovsk rəhbərlyinin də diqqətini çox cəlb edir. Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşev qeyd edib ki, Azərbaycanla əməkdaşlıq beynəlxalq əlaqələrdə başlıca istiqamətlərdən biridir: "Azərbaycanla Sverdlovsk vilayəti arasındakı ticarət dövriyyəsi 85 faiz artıb. Əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün böyük potensial var. İşgüzar əlaqələr və təhsil sahələrində birgə planlar tərtib etmək imkanı yaratdıqları üçün Azərbaycan tərəfinə çox minnətdaram".

**Ümumiyyətlə isə, Azərbaycan regionda Rusiyanın artıq mühüm ticarət tərəfdaşı qismində çıxış edir. Belə ki, Rusiyanın Cənubi Qafqazla ticarətinin yarısı Azərbaycanın payına düşür. Qeyd edək ki, bu ilin yeddi ayında iki ölkə arasında ticarət dövriyyəsi 23 faiz artıb. Qarşıdakı dövr ərzində isə Cənubi Qafqazla Rusiya ticarətinin təxminən dörddə üçünün məhz Azərbaycanın payına düşməsi proqnozlaşdırılır. Rusiyanın müxtəlif vilayət təmsilçilərinin ölkəmizə artan səfərləri də bu istiqamətdə mühüm rol oynayır.**

***Tahir TAĞIYEV***

# Təhsil naziri məktəblərdə ictimaiyyəti narahat edən əsas problemləri gündəmə gətirdi

## *Nadir İsrafilov: "Nazir orta təhsil sisteminin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edildiyini ortaya qoydu"*

**Azərbaycan orta ümumtəhsil məktəblərinin səviyyəsinin yüksək standartlara qaldırılması üçün Təhsil Nazirliyi tərəfindən ardıcıl olaraq işlər həyata keçirilir. Orta təhsil sistemində baş verən neqativ halların qarşısının alınması istiqamətində də nazirlik köklü işlər görür.**

Bu gün orta təhsil sahəsində bəzi xoşagəlməz halların mövcud olduğunu və buna qarşı mübarizə tədbirlərinin gücləndirildiyini təhsil naziri Ceyhun Bayramov təhsil işçilərinin respublika konfransında çıxış edərkən qeyd edib. "Müşahidələrimiz onu göstərir ki, bəzi hallarda qəbul edilən normativ qaydalar yerlərdə tam şəkildə icra edilmir. Təhsil sistemində hər şeyin elektron qaydada aparılması neqativ halların sayını azaltsa da, il ərzində keçirilən nəzarət tədbirləri zamanı bir sıra neqativ halların hələ də mövcud olması öz təsdiqini tapıb".

C.Bayramov onu da deyib ki, bu il ərzində işlərində yol verdikləri nöqsanlarına görə 6 rayon təhsil şöbəsinin rəhbəri vəzifəsindən kənarlaşdırılıb. Eyni zamanda, 10 nəfər rayon təhsil şöbəsinin rəhbəri və 3 nəfər ərazi maliyyə hesablaşma mərkəzinin rəhbəri barəsində işlərində verdiyi nöqsana görə intizam tədbirləri tədbiq edilib.

Bununla yanaşı, 8 nəfər məktəb direktoru, 6 nəfər direktor müavininin əmək müqaviləsinə xitam verilib, 29 nəfər direktor və 37 nəfər direktor müavini barəsində intizam tədbirləri tətbiq edilib. C.Bayramovun sözlərinə görə, 80 nəfər məktəb direktorunun əmək müqaviləsinin uzadılmaması barədə qərar qəbul edilib. Buna səbəb onların nəticələrinin davamlı şəkildə aşağı olmasıdır: "7 hal üzrə materiallar toplanaraq hüquqi qiymət verilməsi üzrə aidiyyəti qurumlara göndərilib. Fikrimcə, bu məsələlərə ciddi yanaşmalıyıq. Bu nöqsanlara yol verən şəxslər öz cəzalarını alacaqlar... Bəzi məktəblərdə arxayınlıq var ki, şagirdlər əlavə hazırlıq hesabına imtahanlara müstəqil hazırlaşa bilərlər. Hesab edirik ki, artıq bu işdə köklü bir yanaşmanın və dəyişikliyin edilməsinin zamanı yetişib" - deyə bildirən nazirin qeyd etdiyinə görə, qarşıda duran vacib məsələlərdən biri bütün məktəblərdə tam orta təhsil səviyyəsində keyfiyyətli təhsilin təmin edilməsidir: "Ancaq apardığımız təhlillər zamanı fərqli mənzərə görürük. Əfsuslar olsun ki, elə təhsil müəssisələrimiz var ki, onlar bu işi lazımi səviyyədə təmin və təşkil edə bilmirlər. Bu, bir çox məqamlarla özünü təsdiq edir".

C.Bayramov, həmçinin, vurğulayıb ki, təhsil qanunvericiliyində edilmiş son dəyişikliklər bütün məktəblər üçün yüksək nəticələr əldə etmək imkanları yaradıb. Bu gün şagirdlərin meyl və maraqları hesabına təmayül siniflərinin yaradılması imkanları var: "Eyni zamanda, şagirdlərin təhsillərinin növbəti pilləsində seçdikləri ixtisasa uyğun olmayan fənlərin sayının azaldılması və ya keçirilməməsi, məhz şagirdlərin maraqlarına uyğun fənlərin keçirilməsi imkanları mövcuddur. Bir çox yerlərdə çətinliklər nəzərə alınaraq, təmayül siniflərinin yaradılması üçün 20 şagird deyil, 15 şagirdlə də formalaşdırılmasının qanunvericiliyə daxil edilməsi imkanları daha da genişləndirilir".

Təhsil Nazirliyi yanında yaradılan İctimai Şuranın üzvü, tanınmış təhsil mütəxəssisi Nadir İsrafilov "Bakı-Xəbər"ə bildirdi ki, təhsil nazirinin təhsil işçilərinin respublika konfransında səsləndirdiyi fikirlər onu göstərir ki, orta təhsil sistemində olduqca böyük işlər görülməkdədir. Uzun illər təhsil sahəsində çalışan bir mütəxəssis kimi 7 nazirlə işlədiyini deyən N.İsrafilovun sözlərinə görə, indiyə qədər heç bir nazir C.Bayramov kimi orta təhsil sistemində mövcud olan nöqsanları açıq şəkildə dilə gətirməyib. "Təhsil naziri Ceyhun Bayramov konfransda çox açıq və səmimi danışdı, orta təhsil sistemindəki çatışmazlıqları çox lakonik və məzmunlu formada ifadə etdi. Nazir, eyni zamanda, qarşıda duran vacib məsələləri xüsusi qeyd etdi. Bunlardan biri də bütün məktəblərdə tam orta təhsil səviyyəsində keyfiyyətli təhsilin təmin edilməsidir. Bu olduqca vacib və aktual məsələdir. Hesab edirəm ki, orta təhsil sistemində mövcud olan neqativ halların qarşısı alındıqca, bu məsələ də təbii şəkildə tənzimlənəcək. Orta təhsil sistemində ciddi islahatlar həyata keçirilir və biz bunu baş verən müsbət dəyişikliklərin fonunda aydın şəkildə müşahidə edirik. Bu sahədə mövcud olan neqativ halların aradan qaldırılması üçün artıq xeyli sayda iş görülüb, işində nöqsanlara yol verən məktəb direktorları, direktor müavinləri, eləcə də bəzi rayon təhsil şöbələrinin müdirləri öz vəzifələrindən xaric edilib. Orta təhsil sistemində vaxtilə mövcud olan süründürməçilik hallarının da qarşısı alınıb. İndi həm 1-ci siniflərə qəbul, həm də şagird köçürülməsi elektron qaydada həyata keçirilir. Bu da sözügedən sahədə şəffaflığın təmin olunmasına xidmət edir. Orta məktəblərdə təhsilin keyfiyyətinin artırılması bu gün çox ciddi məsələdir və bu istiqamətdə də məqsədyönlü işlər həyata keçirilir. Bilirsiniz, bu gün həm mətbuatda, həm də sosial şəbəkələrdə orta təhsil sahəsində neqativlik yaradan məktəb direktorları haqqında xoşagəlməz fikirlər yer alır. Mənim özümə nə qədər insan yazır ki, övladımı məktəbə götürmürlər, bir məktəbdən başqa məktəbə keçməsinə şərait yaradılmır və s. Bizə belə müraciətlər çox edilir. Nazir ictimai rəyə xüsusi önəm verir və cəmiyyəti məktəblə bağlı narahat edən məsələlərin həlli istiqamətində işlər görür. Düşünürəm ki, orta məktəblərdə təhsilin daha yüksək səviyyəyə çatdırılması üçün bütün işlər ardıcıl olaraq həyata keçiriləcək. Nazirin səsləndirdiyi fikirlərdən belə qənaətə gəlmək olar ki, təhsilin keyfiyyətinin artırılması üçün orta təhsil sistemində yeni islahatlar start götürüb. Nazir orta təhsil sisteminin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edildiyini ortaya qoydu. Bu sahədə köklü işlər görülməkdədir. Çünki bu sahədə şəffaflığın tam təmin olunmasında, eləcə də təhsilin səmərəliliyinin, keyfiyyətinin artırılmasında, orta təhsilin keyfiyyətinin yüksək səviyyəyə çatdırılmasında nazir maraqlıdır və o, bu yöndə çalışır".



*"O, ictimai rəyə xüsusi önəm verir və cəmiyyəti məktəblə bağlı narahat edən məsələlərin həlli istiqamətində işlər görür"*

N.İsrafilov qeyd etdi ki, Təhsil Nazirliyi yanında İctimai Şuranın yaradılması, bu şurada təmsil olunanların mütəxəssislər olmasının da bu sahəyə faydası dəyəcək. Onun sözlərinə görə, nazirin göstərişi ilə yaradılan şuranın əsas məqsədi orta təhsil sistemində mövcud olan problemlərin həll edilməsidir. "Biz mütəxəssislər təhsil sahəsində olan problemlərlə, dərsliklərdəki nöqsanlarla və s. bağlı danışanda əvvəlki nazirlər buna əhəmiyyət vermirdilər, deyirdilər ki, onlar narazı adamlardır. Halbuki, biz orta təhsilin problemlərindən danışırdıq və onun həllinə nail olmaq istəyirdik. Lakin Ceyhun Bayramov bu məsələlərə çox ciddi yanaşır və bu sahədə fəaliyyət göstərir. İctimai Şuranın yaradılması da orta təhsil sistemində mövcud olan problemlərin aradan qaldırılmasına yönəlib. Bəzi təhsil müəssisələri var ki, ora rəhbərlik edən insanlar öz vəzifələrinin öhdəsindən gələ bilmirlər. Bunu nazir də qeyd etdi. Əslində isə məktəb rəhbərləri bu sahədə səriştəli olmalıdırlar" - deyə N.İsrafilov vurğuladı.

***İradə SARIYEVA***

**Vətəndaşlar bu il daha bir turizm şirkəti tərəfindən dələduzluğa məruz qalıblar. Son zamanlar bəzi turizm şirkətləri vətəndaşlardan müəyyən məbləğdə pul alaraq onların xarici ölkələrdə istirahəti üçün tur təşkil edəcəklərini bildirirlər. Belə şirkətlərdən biri də "Like Travel"dır.**

# Antalyaya tur təşkili adı altında vətəndaşları aldadan daha bir turşirkətin adı çıxdı - "Like Travel"...

## Elçin Rüstəmov: "Yerli turistlərin aldadılmaması üçün aidiyyəti qurumlar turizm şirkətlərinin fəaliyyətinə nəzarəti gücləndirməlidirlər"




## "Turizm şirkətləri mülki məsuliyyət sığortasına cəlb olunarsa..."

Bu barədə zərərçəkmiş Elmir Sadıqlı sosial şəbəkədə məlumat paylaşaraq bildirib ki, o və dostları ayrı-ayrılıqda "Like Travel" adlanan şirkətə 4200 manat ödəyərək Antalyaya turpaket almaq istəsə də, şirkət tərəfindən dolandırılıb: "İyulun 6-sı 3 dostumla birgə Antalyaya turpaket almaq üçün "Like Travel" adlanan şirkətə yaxınlaşdıq. İlkin ödəniş olaraq hər birimiz 700 AZN ödədik. Şirkətin direktoru Azər Şükürovla razılaşdıq ki, uçuşa 15 gün qalmış növbəti ödənişi edərik. Ümumilikdə, ödənişimiz isə 4200 AZN təşkil edirdi ki, bu paketə 4 nəfərin otel, təyyarə biletləri daxil idi. Növbəti 3500 AZN ödənişi iyulun 18-də şirkətin digər ofisində ödədim. Azər Şükürov sabah, yəni ayın 19-da vauçerlərimizi götürə biləcəyimizi dedi. Ancaq bu sabahlar uzandıqca uzandı. Biz otellə əlaqə saxladıq, heç adımıza rezervasiya belə edilmədiyini öyrəndik. Bundan sonra aldadıldığımızı hiss edərək ofisə yaxınlaşdıq. Orada bildik ki, bizimlə yanaşı, 20-30 nəfər də aldadılmış şəxs var. Ödədiyimiz məbləği geri tələb edəndə Azər Şükürov pulu xərclədiyini bildirdi və geri qaytaracağını vəd etdi. Sonra öyrəndik ki, 31 avqust tarixində gecə ilə Azər Şükürov Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən saxlanıb. Biz də, eyni zamanda, rəsmi olaraq 102-yə şikayət etdik. 20-ci Polis Bölməsində izahatımızı aldılar və bildirildi ki, eyni şikayətlə azadlığa buraxılıb. Bakıdan qaçaraq Kürdəmir rayonunda gizləndiyini öyrəndik. Hər dəfə zəng edəndə, evini satıb borcumuzu ödəyəcəyini deyirdi".

Məsələ ilə bağlı "Like Travel" şirkəti ilə əlaqə saxlamağa çalışsaq da, zəngləbağlı 25 nəfər müraciət edib. Ümumi olaraq insanlardan 70-80 000 AZN çərçivəsində pul mənimsənilib. Ancaq 10-12 gün sonra Azər Şükürov rimizə cavab verən olmadı.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bizimlə söhbətində bildirdi ki, yerli turistlərin aldadılması ilə bağlı kifayət qədər fakt var: "Müştəri şirkətdən hər hansı turu alır. Hava limanına gedəndə isə şəxs reysə buraxılmır. Və ya turist xaricdə gözləmədiyi mənzərə ilə qarşılaşır. Sifariş edilən otelə müraciət edəndə bron edilmədiyi aşkar olunur. Bu tip hallarla çoxlu sayda vətəndaş rastlaşıb. Bəziləri üzləşdikləri problemi ictimailəşdirir, bəziləri isə heç nə olmamış kimi həyatlarına davam edirlər"

Ekspertin fikrincə, bu kimi hadisələrin sayının azalması üçün aidiyyəti qurumlar turizm şirkətlərinin fəaliyyətinə nəzarəti gücləndirməlidirlər. Turizm şirkətləri mülki məsuliyyət sığortasına cəlb olunarsa, bu sığorta vasitəsilə onların yerli və xarici turistlər qarşısında öhdəlikləri təmin ediləcək.

Həmsöhbətimiz onu da vurğuladı ki, vətəndaşlar əvvəlcə turpaket aldıqları şirkətləri internet üzərindən araşdırsınlar. Həmçinin, turizm şirkətlərilə sövdələşmələri rəsmi qaydada aparsınlar.

*Günel CƏLİLOVA*

# Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi "Leş Tofiqin" dəhşətli "qidaya yararsız ət tədarükü" şəbəkəsini ifşa etdi

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə birgə vətəndaşların ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.**



Əməliyyat zamanı mütəşəkkil dəstə tərkibində birləşən əvvəllər eyni əməllərə görə məhkum olunmuş şəxslərin yaratdığı şəbəkənin üzvləri ifşa olunaraq məsuliyyətə cəlb edilib.

Toplanmış materiallardan müəyyən edilib ki, mütəşəkkil dəstənin üzvləri bir müddətdir qidaya yararsız, ölmüş iribuynuzlu mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanması, tədarükü və emalı ilə məşğul olublar.

Belə ki, mütəşəkkil dəstəyə rəhbərlik edən, əvvəllər məhkum olunmuş "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov Abşeron rayonunun Güzdək qəsəbəsi ərazisində ət tədarükü məntəqəsi yaradaraq qanuni fəaliyyət göstərən heyvan kəsimi sexi görüntüsü altında pərdələnərək cinayətkar şəbəkə yaradıb. O, qurduğu cinayətkar şəbəkə vasitəsilə rayonlardan mənşəyi məlum olmayan, qidaya yararsız, ölmüş heyvan ətlərinin əsasən gecə saatlarında daşınmasını, emal edilməsini, satışa çıxarılmasını təşkil edib.

Əməliyyat tədbirləri zamanı müəyyən edilib ki, mütəşəkkil dəstənin rəhbərlərindən biri Əlifxan Rzaxanov Sabirabad rayonunun Xəlfəli kəndində eyni qaydada tədarük məntəqəsi yaradaraq mənşəyi məlum olmayan heyvan ətlərini ətraf rayonlardan toplayaraq Alıbəy Rzaxanova göndərilməsini təşkil edib.

Dəstə üzvlərinə məxsus Abşeron rayonunun Güzdək qəsəbəsində, Sabirabad rayonunun Xəlfəli kəndində, Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən sex, anbar və gizli saxlanc yerlərinə baxış keçirilərkən 40 tona yaxın qidaya yararsız, mənşəyi məlum olmayan mal və at əti aşkar olunub.

Təyin olunmuş müvafiq ekspertizalarla aşkar olunmuş ətin qidaya tam yararsız və insan sağlamlığına ciddi təhlükə mənbəyi olması təsdiq edilib.

Faktla bağlı Baş İdarədə cinayət işi başlanılaraq mütəşəkkil cinayətkar dəstəyə daxil olan 8 nəfər həbs edilib. Bu cinayətkar şəbəkə ilə əlbir olan şəxsiyyəti hələ ki, müəyyən edilməyən digər şəxslərin də saxlanaraq istintaqa cəlb edilməsi istiqamətində əməliyyat-axtarış tədbirlər davam etdirilir.



# Dərman zəhərlənmələri çoxalır - həkimlər çox ciddi mətləblərdən danışır...

## Rasif Bağırov: "Dərman dozadan artıq qəbul ediləndə zəhərdir, toksik maddədir"

## "Dərmanların istehsalı zamanı onların tərkibinə əlavə qatqıların qatılması..."

**Statistik məlumatlara görə, bu gün dünyanın hər yerində insanlar bir il ərzində milyon tonlarla müxtəlif kimyəvi dərman preparatları qəbul edirlər. Məsələn, ABŞ-da əhalinin gün ərzində qəbul etdiyi aspirinin çəkisi 20-30 tonla ölçülür. Ancaq dərmanların qəbulu heç də həmişə effekt vermir.**

Bu il ölkəmizdə şəfa tapmaq niyyəti ilə qəbul etdikləri dərmandan zəhərlənənlərin sayı ötən illə müqayisədə artıb. Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov media nümayəndələrinə açıqlamasında deyib ki, bu ilin yanvar-avqust ayları ərzində 124 nəfər dərmandan zəhərlənmə şikayəti ilə Səhiyyə Nazirliyinin Kliniki Tibbi Mərkəzinə müraciət edib. Onun sözlərinə görə, dərmandan zəhərlənmə şikayəti ilə müraciət edənlərin 16-sı uşaq olub: "İl ərzində 15-i uşaq olmaqla, 96 nəfər dərmanların qəbulundan sonra yaranan allergik təsirlərlə bağlı mərkəzə müraciət edib. Zəhərlənmə hallarının baş verməsi ölkədəki dərman preparatlarının keyfiyyətsizliyi ilə bağlı deyil. Bu cür hallar həkim məsləhəti olmadan özbaşına, təyinatsız dərman preparatları qəbul etməkdən baş verir. Müraciət edənlər əsasən antibiotiklər və vitaminlərin qəbulu nəticəsində dərmanların əlavə təsirlərinə məruz qalıblar. Uşaqlar çox zaman evdə nəzarətsiz qaldıqda dərman qəbul edirlər. Onlar, adətən, nənə-babalarının dərmanlarını qəbul edirlər. Bu dərmanlar da əsasən qan laxtalanmasına, təzyiqə qarşı olur. İndi dərmanların çoxu rəngbərəng, dadı isə şirin olduğundan, uşaqlar onlara maraq göstərir və içirlər. Yaxşı olar ki, dərmanlar uşaqların əllərinin çatmadığı yerlərə qoyulsun".

Maraqlıdır, dərman zəhərlənmələrinə səbəb həblərin keyfiyyətsizliyi və ya həkimlərin qeyri-peşəkarlığı ilə bağlıdır?

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, hər bir dərman preparatı zəhərlənməyə səbəb ola bilər: "Dərman dozadan artıq qəbul ediləndə zəhərdir, toksik maddədir. Burada iki kateqoriyalı məsələni ayırd etmək lazımdır. Birinci kateqoriyalı məsələ odur ki, dərmanlardan zəhərlənmə qəsdənmi baş verir? Yəni xəstə bilərəkdən çoxlu sayda həb qəbul edərək özünə qəsd edir, yoxsa, sadəcə, normal dozanı qəbul edib zəhərlənir? Bu ikisi fərqli-fərqli şeylərdir. Biri kriminal haldır, digəri isə dərmanlarla bağlı baş verən haldır. Ola bilər ki, dərman maddəsinin keyfiyyət parametrləri aşağıdır və həmin dərman maddələri qəbul olunduqda zəhərlənmə baş verir. Mümkündür ki, həmin həblərin tərkibindəki dərman əlavəsi və sair aşağı keyfiyyətdə olsun. Məsələn, bəzən bu əlavə ağır metal duzlarından və sair ibarət olur, ondan da zəhərlənmə baş verir. Bu bir variantdır. Digər variant isə odur ki, dərman vasitəsini xəstə müalicə məqsədilə qəbul edir və zəhərlənir. Yəni bu da dərman vasitəsinin yad təsirindən qaynaqlanır. İstənilən halda, dərman maddələrinin keyfiyyət parametrlərinə bağlı olan zəhərlənmələr, əlbəttə ki, ciddi araşdırılmalıdır. Bu dərman maddələrini gətirən firmalar, onun istehsal olunduğu yer, bütün bu məsələlər ciddi araşdırılmalı və məsuliyyət daşıyan şəxs cəzalandırılmalıdır. Amma bir insan özünə qəsd etmək üçün bunu edirsə, artıq bu başqa araşdırılmalı məsələdir. Amma keyfiyyətsiz bir dərmandan zəhərlənmə dərman təhlükəsizliyi prinsiplərinin pozulmasıdır və buna görə də cavabdeh olan şirkətlər, firmalar məsuliyyət daşıyırlar. Təəssüflər olsun ki, bu məsələlər müəyyən korporativ maraqlara görə araşdırılmır".

Həmsöhbətimiz onu da vurğuladı ki, dərmanların istehsalı zamanı onların tərkibinə əlavə qatqıların qatılması ilə bağlı doza həddi var: "Yəni həmin doza həddini aşdıqda, dərman preparatı potensial zəhərlənmə mənbəyi ola bilər. Çünki əlavə qatqılar ağır metallarla zəngin olur. Ümumiyyətlə, dərman bazarında keyfiyyətə nəzarət strateji əhəmiyyət daşıdığından, ciddi nəzarət sistemi olmalıdır. Əks halda, dərmanı şəfa tapmaq üçün qəbul edib, şəfa ocaqlarına üz tutanların sayı çox olacaq".

*Günel CƏLİLOVA*

# Məktəblərdə psixoloji xidmət qanuniləşdirilir

**Kamran Əsədov:** *"Təhsil qanununda olan bu dəyişikliyi müsbət addım kimi qiymətləndirmək olar"*

**Azərbaycan orta ümumtəhsil məktəblərində mövcud olan ciddi problemlərdən biri psixoloqlarla bağlıdır. Qanunvericilikdə əks olunsa da, həm paytaxt, həm də respublikanın digər məktəblərində ixtisaslı psixoloq çatışmazlığı var. Bu məktəblərdə psixoloq ştatı olsa da, xeyli hissəsində işçi yoxdur.**

Bir sıra məktəblərdə isə psixoloqlar olsa da, onlar şagirdlərlə işləmələri üçün xüsusi kabinet və müvafiq alətlərlə təmin olunmayıblar. Bu gün respublikamızda çox az sayda məktəb tapmaq olar ki, orada psixoloq lazımi səviyyədə xidmət göstərir.

Bildiyimiz kimi, uzun müddətdir Təhsil Nazirliyində bu problemin aradan qaldırılması istiqamətində işlər görülür. Dəfələrlə nazirlik rəsmiləri açıqlamalar veriblər ki, məktəblərin psixoloqla təmin edilməsi məsələsi diqqətdədir.

Məlum olduğu kimi, Təhsil Nazirliyinin təklifi əsasında Milli Məclisdə "Təhsil haqqında" Qanuna psixoloji xidmətin təşkili ilə bağlı yeni maddə əlavə edilib, məktəb psixoloqunun fəaliyyətini tənzimləyəcək qaydalar layihəsi hazırlanıb.

Bununla bağlı Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev mətbuata deyib ki, bu qaydalar layihəsi təsdiq edildikdən sonra məktəb psixoloqlarının lazımi adekvat, vahid alətlərlə təmin edilməsi istiqamətində işlər görülməli, mövcud xarici testlərin standartlaşdırılması məsələsi həll edilməlidir.

B.Əliyevin fikrincə, islahatların uğurla həyata keçirilməsi həm də psixoloji xidmətin təşkilindən asılıdır: "Təəssüf ki, bu gün orta məktəblərdə mövcud olan psixoloji xidmətə münasibət ürəkaçan deyil və bu iş formal xarakter daşıyır. Məktəblərin hazırlıqlı psixoloqlarla təmin edilməsi üçün yetərincə mütəxəssis yoxdur. Təhsil mühitinin yaradıcı təlim mühitinə çevrilməsi, yaradıcı təfəkkürə malik müstəqil şəxsiyyətin yetişdirilməsini təmin edən yaradıcı müəllimlərin və fəal-interaktiv təlim metodlarının hazırlanması baxımından da psixoloji xidmətin əsaslı şəkildə yenidən qurulması zəruridir".

Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, "Təhsil haqqında" Qanuna psixoloji xidmətin təşkili ilə bağlı yeni maddə əlavə edilməsi və məktəb psixoloqunun fəaliyyətini tənzimləyəcək qaydalar layihəsinin hazırlanması bu istiqamətdə mövcud olan problemlərin aradan qalxmasına səbəb olacaq.

"İlk növbədə qeyd edim ki, bu gün məktəblərdə psixoloq ştatı olsa da, psixoloqlar öz işlərini görmürlər. Uşaq və yeniyetmələr arasında artan psixoloji problemlər də bunu sübut edir. Orta məktəblərdə çalışan psixoloqlar öz işlərini bilmirlər. Məktəb psixoloqları əksər məktəbdə öz işləri ilə deyil, kənar işlərlə məşğul olurlar. Bir çox məktəblərdə psixoloqlar kağız aparıb-gətirir, məktubların qeydiyyatını aparırlar və s. Halbuki, müasir dövrdə psixoloq ştatı məktəblərdə ən vacib olan ştatlardan biridir. Onun vəzifəsi də mühümdür. Bizim məktəblərdə psixoloqlara ehtiyac var. Şagirdlərin psixoloqa olan ehtiyacı ödənilmədiyindən, psixoloji problemləri həllini tapmadığından, aşağı siniflərdən tutmuş, yuxarı siniflərə qədər uşaqlar arasında intiharlar artır. Bu, uşaqların həyata hazır olmaması, çətin məqamlarda çıxış yolu tapa bilməməsi üzündən baş verir. Şagirdlərdə depressiya müşahidə olunur. Bu problemlərin əsas səbəbi bizim məktəblərdə psixoloqların işinin bu günün tələblərinə cavab verməməsidir" - deyə bildirən K.Əsədov qeyd edir ki, orta məktəb psixoloqlarının fəaliyyətində problemlər var. Onun sözlərinə görə, ola bilsin ki, aldıqları təhsilin səviyyəsi onlara bu işi görməyə imkan vermir və ya onlar işlədikləri kollektivdə özlərini tapa bilmirlər. "Məktəb psixoloqlarının funksiyaları aydın şəkildə işlənməlidir. Hesab edirəm ki, ali təhsil müəssisəsində çalışan müəllim köhnə ədəbiyyatlarda olan və sırf nəzəriyyəyə əsaslanan məlumatları tələbələrinə çatdırmaqdan başqa iş görə bilmirsə, demək, bu tip ali məktəblər dövrün və zamanın, o cümlədən, əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlaya bilməyəcək.



*"Bu gün qanuna edilən dəyişikliklər və əlavələr öz nəticəsini bir neçə ildən sonra göstərə biləcək"*

Problemin kökündən və sistemli şəkildə həlli üçün, ilk növbədə, psixologiya ixtisası mövcud olan ali təhsil müəssisələrində çalışan müəllim heyətinə psixologiya elminin müasir dövrdə tələbləri və yenilikləri barədə məlumatlı olmaları üçün mütəmadi olaraq təlim kursları, treninq və seminarlar təşkil olunmalıdır. Ali məktəblərdə psixologiya elminin qanunauyğunluqları və günümüzün tələblərinə cavab verə biləcək tədrisin təşkili üçün ciddi addımlar atılmalıdır. Bu işin təşkili məktəb psixoloqlarının və sosial işçilərin yetişməsində çox böyük təsir gücünə malikdir. Belə olan halda, məktəbə gələn psixoloq peşəkar kompetensiyaya malik olacaq və işini dövrün tələblərinə uyğun şəkildə qura biləcək.

Təhsil qanununda olan bu dəyişikliyi müsbət addım kimi qiymətləndirmək olar. Lakin problemi sistemli və kökündən həll edə biləcəyini düşünmürəm. Çətin və uzunmüddətli olmasına baxmayaraq, problemin sistemli həlli işini ali məktəblərdən başlamağı daha optimal və effektiv həll yolu kimi görürəm. Bu gün qanuna edilən dəyişikliklər və əlavələr öz nəticəsini bir neçə ildən sonra göstərə biləcək. Bundan başqa, məktəb psixoloqlarının hansı tələblərə cavab verməsi müəyyənləşdirilməlidir. Bu tələblərdən irəli gələrək məktəb psixoloqlarının işini düzgün istiqamətləndirən proqram işlənməli, hazırlanmalıdır" - deyə bildirən mütəxəssis təklif edir ki, məktəbdə psixologiya fənni keçirilsin və hər yaşa uyğun psixologiya dərslikləri olsun. O hesab edir ki, hətta ibtidai siniflər üçün də ayrıca psixologiya dərsləri keçilməlidir "Onsuz da psixoloqlar ibtidai siniflərlə də iş aparırlar" - deyə K.Əsədov vurğuladı.

***İradə SARIYEVA***

**Bakıda xəstəliklərin ən çox hansı rayonda qeydə alındığı açıqlanıb. Açıqlanan məlumatlara görə, ən çox xəstəlik paytaxtın Xətai rayonunun əhalisində müşahidə edilib. Belə ki, adıçəkilən rayonda 2017-ci ildə 68371 xəstəlik qeydə alınıb. Binəqədi rayonu isə paytaxt əhalisinin daha çox xəstələnməsi kateqoriyasına görə ikinci yerdədir.**

# Bakının "ən xəstə" rayonları - niyə...

## *Adil Qeybulla: "Bu gün paytaxt ərazisində istifadəyə yararsız yetərincə avtomobil var, həmin nəqliyyat vasitələrindən qara tüstü atmosferə buraxılır"*




2017-ci ildə Binəqədi sakinləri arasında 67816 xəstəlik qeydə alınıb. Yasamalda 56588, Sabunçuda 49634, Nəsimidə isə 47080 xəstəlik müşahidə olunub.

Paytaxtın Pirallahı rayonunun əhalisi isə az xəstələnir. Bu rayonda 2017-ci ildə 4056 xəstəlik halı müşahidə edilib.

Qeyd edək ki, bəzi infeksion və parazitar xəstəliklər kateqoriyasında isə Nəsimi rayonu öndədir. Belə ki, 2017-ci ildə Nəsimidə 12680 nəfər bəzi infeksion və parazitar xəstəliyə yoluxub. Tənəffüs orqanlarının xəstəliklərinə görə isə Binəqədi yenə "liderdir". Eyni dövrdə Binəqədidə 31617 şəxs tənəffüs orqanı xəstəliyindən əziyyət çəkib. Sabunçuda isə bu kateqoriya üzrə 18496 xəstəlik qeydə alınıb. Bakıda ağciyər vərəminə yoluxma halı da daha çox Sabunçuda olub. 2017-ci ildə Sabunçuda 96 nəfərə ağciyər vərəmi diaqnozu qoyulub.

2017-ci ildə Xətaidə 74, Yasamalda 69, Xəzərdə 51, Qaradağda 50 nəfər vərəmə yoluxub. 2017-ci ildə Pirallahıda cəmi 3 nəfərə vərəm diaqnozu qoyulub. Bununla da Pirallahı ən az vərəmlə xəstələnən rayonlar siyahısına düşüb. Pirallahıda 2017-ci ildə sifilis, kəskin xroniki süzənək, viruslu hepatit və qoturluq qeydə alınmayıb. Ən çox sifilis xəstəliyi isə Nəsimidə qeydə alınıb (60 nəfərdə). Sabunçuda isə bu rəqəm 52 olub. Məlumat üçün bildirək ki, Bakıda qoturluq isə ən çox Binəqədidə yayılıb. 2017-ci ildə Binəqədidə 11 nəfərdə qoturluq aşkarlanıb.

*"Əhalinin böyük əksəriyyəti paytaxt ərazisində toplaşdığı üçün, xəstəliklər bölgələrlə müqayisədə daha çox Bakıda qeydə alınır"*

Bakı rayonlarının xəstəliklər üzrə göstəriciləri barədə fikir bildirən professor, tibbi ekspert Adil Qeybulla "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əhalinin böyük əksəriyyəti paytaxt ərazisində toplaşdığı üçün xəstəliklər bölgələrlə müqayisədə daha çox Bakıda qeydə alınır. Eyni zamanda, bu gün paytaxt ərazisində istifadəyə yararsız yetərincə avtomobil var. Həmin avtomobillərdən qara tüstü atmosferə buraxılır: "Havanın çirklənməsi xəstəliklərin artmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, 1 kubmetr havada 1 nanoqram benzokratilin maddəsi varsa, bu, xərçəng təhlükəsi yaradır. Bununla yanaşı, içməli su məsələsi də problemlərdən biridir.

Ölkəyə daxil olan ərzaq məhsullarının keyfiyyət parametrləri çox aşağıdır. Bəzi qidalara əlavə dad və rəng qatılır ki, bu da insanların sağlamlığına təsir edir".

***Günel CƏLİLOVA***

**Mal-qaranın əsas qidasını təşkil edən quru ot bağlamalarının, yəni presin qiyməti ilbəil artır. Artıq neçə ildir qiymətlər artmağa doğru gedir. Məsələn, ən qidalı ot hesab edilən yonca bağlamasının qiyməti 2016-cı ildə 2-4, təbii ot 1-2, ən zəif tərkibli hesab edilən saman bağlaması isə 50 qəpik - 1 manat arasında dəyişirdi.**

# İqlim şəraiti normal, mal-qara üçün ot yemi niyə bahalaş(dırıl)ır...

## *Nicat Nəsirli: "Otarılma hesabına mal-qaranın saxlanması mümkün olmadığına görə insanlar daha çox yemə yüklənirlər"*



2017-2018-ci illərdə də sözügedən quru ot bağlamalarının qiyməti müvafiq olaraq 2 manata qədər bahalaşıb.

Qəribədir ki, bu il hava şəraiti ot və küləş yığımı üçün ümumən əlverişli olsa da, yenə də qiymətlər artıb. Azərbaycanda taxıl istehsalı artsa da, bu, ən azından, küləşdən hazırlanan otun qiymətinə təsir etməyib. Ötən illərlə müqayisədə ot bağlamasının qiymətində 1 manat artım müşahidə edilir. Belə ki, ən qidalı ot hesab edilən yonca bağlamasının qiyməti 4-6, təbii ot 3-4, ən zəif tərkibli hesab edilən saman bağlamasının qiyməti isə 1,5-2 manat aralığında dəyişir. Təsərrüfat sahibləri bahalaşmanın davam etməsindən narahatdırlar.

Məlumdur ki, yemin qiyməti son nəticədə ətin qiymətinə təsir edir. Maraqlı olan odur ki, bəzən əlverişli hava şəraiti olmasına rəğmən, yemin qiyməti ucuzlaşmır. Maraqlıdır, ölkə daxilində mal-qara yeminin qiyməti niyə ilbəil artır? Qiymət artımının kökündə nə dayanır?

Məsələyə münasibət bildirən kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli ot bağlamalarının ilbəil bahalaşmasını bir sıra amillərlə əlaqələndirdi: "Yemin bahalaşması ənənəvi problemdir. Məsələ ondadır ki, hər il müəyyən faktorlar qiymətin qalxmasına öz təsirini göstərir. Fəsillərin vaxtında gəlməməsi də buna öz təsirini göstərir. Görürsən, yay qurtarmamış payız gəlir. Fəsillərin vaxtında gəlməməsi bitkilərin fizioloji inkişafına və bu da nəticə etibarilə məhsuldarlığa ciddi təsir göstərir. Bizdə əsas yem komponenti yonca sayılır. Aran rayonlarında əvvəllər yonca sahələrindən ildə 5-6 dəfə biçin mümkün olurdusa, indi üçüncü biçindən sonra sahələrdə məhsuldarlıq aşağı düşür. Deməyim odur ki, bunun bir səbəbi iqlim dəyişiklikləri ilə bağlıdır. Bu təkcə otla bağlı olan məsələ deyil.

*"Aran rayonlarında əvvəllər yonca sahələrindən ildə 5-6 dəfə biçin mümkün olurdusa, indi üçüncü biçindən sonra sahələrdə məhsuldarlıq aşağı düşür"*

Görünən odur ki, iqlim amilləri ilə bağlı risqlər artır. Ona görə də bununla bağlı alternativ variantlar tapılmalıdır. İkincisi, örüş və otlaq sahələri sürətlə sıradan çıxır. Otarılma hesabına mal-qaranın saxlanması mümkün olmadığına görə insanlar daha çox yemə yüklənirlər. Bu zaman yemə böyük tələbat yaranır və nəticədə qiymətlər bahalaşır. Yeri gəlmişkən onu da qeyd edim ki, "Heyvandarlığın inkişafı və örüş-otlaq sahələrinin bərpası" proqramı hazırlanır. Orada xüsusi qeyd edilib ki, örüş-otlaq sahələri bərpa olunmalıdır. Çünki bu sahələr sıradan çıxdıqca, hazır yemə daha çox üstünlük verilir. Bu da qiymətləri artırır. Üçüncü problem ondan ibarətdir ki, Azərbaycanda yemçilik birtərəfli inkişaf edib. Bizdə heyvan yemi deyəndə əsasən yonca başa düşülür. Ancaq bu gün müasir dünyada çoxsaylı yem bitkisi var ki, həm əkilir, həm də satılır. Çox təəssüf ki, bizdə amarat, xaşa kimi qidalı yem bitkiləri əkilmir. Bu bitkilər, ümumiyyətlə, əkin strukturunda yoxdur. Qarğıdalı əkini ölkədə yetərli səviyyədə deyil. Yem bitkiləri çox əkilsəydi, qiymətlər belə yüksək olmazdı. Bizdə 2 milyon 800 min baş inək, 8 milyon başadək xırdabuynuzlu heyvan, 30 milyon baş quş bir və ya bir neçə yem komponentinin üzərində köklənib. Ona görə də bir belə tələbatı ödəmək üçün ölkənin faktiki imkanları yoxdur. Heyvandarlıqda da belədir ki, xərclərin maya dəyərinin 70 faizini yem faktoru müəyyən edir. Yem ucuzdursa, bu, ətin qiymətinə təsir edir, yem bahadırsa, o zaman qiymət qalxır. Ən nəhayət, dördüncüsü, Azərbaycanda yem sənayesi inkişaf etməlidir. Bizdə sənaye yemlərindən istifadə səviyyəsi çox aşağıdır. Hamı heyvanı otla yemləmək istəyir. Bax, budur problem".

***Vidadi ORDAHALLI***

№ 162 (4060) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

13 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# İsti Yupiterin atmosferində ilk dəfə kalium tapılıb

**Astronomlar ilk dəfə olaraq iki isti Yupiterin atmosferində kalium atomlarını aşkar ediblər. İşin nəticələri ekzoplanetlərin atmosferində baş verən kondensasiya və ya fotoionizasiya prosesləri haqqında daha çox məlumat əldə etməyə imkan verir.**

"Trend" xəbər verir ki, öz ulduzlarına yaxın olan isti yupiterlərin atmosferində natrium və kalium atomlarının olması təxminən 20 il öncə nəzəri olaraq təxmin edilmişdi. Hər iki element planetin öz ulduzunun diskinin qarşısından keçməsi zamanı optik spektrlərdə aydın udulma



zolaqları vermişdir. Bu halda ulduzdan gələn işığın bir hissəsi planetin atmosferindən keçir və müxtəlif kimyəvi elementlər tərəfindən udulur ki, bu da atmosferin kimyəvi tərkibini təyin etməyə imkan yaradır. Əvvəllər HD189733b və HD209458b ekzoplanetlərinin atmosferində natrium aşkar edilməsi ilə əlaqədar işlər dərc olunmuşdu, lakin indiyə qədər bu isti yupiterlərin atmosferində kalium atomunun etibarlı şəkildə qeydə alınması halları olmamışdır. Astronomlar qeyd olunan ekzoplanetlərin yuxarı atmosfer təbəqələrində böyük dəqiqliklə kalium atomlarının və HD209458b atmosferində natrium atomları miqdarının HD189733b atmosferindəkindən iki dəfə az olmasını aşkar ediblər. Fərz olunur ki, belə fərqlər planetlərin özlərinin yaranması prosesi ilə bağlı deyildir.

Fərq, atmosferin yuxarı qatlarında fotoionizasiya və (və ya) atmosferin aşağı qatlarında metal buxarlarının kondensasiya prosesləri, həmçinin atmosferdə buludların meydana gəlməsi mexanizmlərinin müxtəlifliyi nəticəsində yaranır. Əvvəllər dörd yeni isti yupiter tapılmışdır ki, onlardan biri, bu günə qədər məlum olan ən isti, qəribə orbitli ekzoplanetdir.

## ABŞ şirkəti 3D bioprinterdə miniatür insan ürəyi çap edib

**Çikaqonun "Biolife4D" biotexniki şirkəti 3D bioprinterdə çap edilmiş miniatür insan ürəyi hazırlayıb. Hazırlanmış ürək tam ölçülü kimi eyni struktura malikdir.**



Şirkətin rəsmisi bildirib ki, bu, transplantasiya üçün yararlı süni ürəyin hazırlanmasında mühüm mərhələdir. "İctnews.az" bildirir ki, hazırlanmış ürək xəstələrdən birinin kardiomiositləri (ürək əzələlərinin hüceyrələri) və hüceyrə xarici matriks birləşmələrindən hazırlanmış biomürəkkəblə çap edilib. Hazırlanmış nümunə məməlinin ürəyi ilə eynidir. "Biolife4D" şirkəti ilk dəfə 2018-ci ilin iyununda insanın ürək toxumasını çap edib. Bundan başqa, həmin il şirkət klapanlar, mədəcik və qan damarları daxil olmaqla ürəyin ayrı-ayrı komponentlərini hazırlamışdı. Şirkət gələcəkdə tamfunksional insan ürəyi çap etməyi planlaşdırır. "Biolife4D" 3D bioprinterdə orqanlar hazırlayan yeganə şirkət deyil. Məsələn, Təl-Əviv Universitetinin mütəxəssisləri bu ilin əvvəlində ürək çap ediblər.

## Elan

Şəmkir Şəhər Bələdiyyəsinin 0.0785 həyətyanı torpaq sahəsi üçün 25.11.2014-cü ildə verdiyi, reyestr nömrəsi 504012002508, qeydiyyat nömrəsi 3114006461 olan sənədlər itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Qırmızı Şərq küçəsi, ev 334, mənzil 11 ünvanı üzrə Paşayeva Rəsmiyyə Əfşan Musa qızının adına verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən seriya R.X №0478086 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.

Abşeron rayonu Fatmayi kəndində yerləşən torpaq sahəsinin sahibi Qafarova Rəsmiyyə Yadulla qızına məxsus JN-142 "A" kod 30803018 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Əsədov Anar Əsədulla oğluna Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən 06.06.2018-ci il tarixində verilmiş VK 1161 saylı vəkil vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hərrac: Bakı şəhəri, İ.Hidayətzadə küçəsi 156 (20 A) 1933-cü məhəllə ünvanında keçirilir. Tel: 566-70-25; 566-79-67. http: birjaxəbər.az. Açıq formada. Nəsimi Nəqliyyat: "Kia Sorenta" markalı avtomobili (2010, boz metal, qeyd olunan avtomobilin boyalanmaya və əsaslı təmirə ehtiyacı var.) - 4000.00 man. Beh: Satış qiymətinin 5% hərrac təşkilatının depozit hesabına. Behlər hərracın başlanmasına ən geci 3 saat qalanadək qəbul olunur. Hərrac addımı ipoteka predmetlərində: Satış qiymətinin 3%-dək. Digər hallarda sərbəst 01/666 D lot üzrə. Fiziki şəxslər şəxsiyyət vəsiqəsi: Hüquqi şəxslər - təsis sənədləri. Hərracı udmuş şəxs alış qiymətini 7 təqvim günü müddətində İcra və Probasiya Şöbəsinin depozit hesabına ödəməlidir. Qeyd olunan avtomobilin 19.08.2019-cu il tarixdə keçirilən hərracda qalib alıcı tərəfindən əmlakın dəyəri 7 təqvim günü ərzində ödənilmədiyindən, hərrac 23.09.2019-cu il tarixində saat 11:00 - 17:00-dək növbəlik üzrə keçiriləcək.

Hüseynov Yaşar Nizami oğlunun adına Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi yolu 8, bina 1, mənzil 32 ünvanının reyestr nömrəsi 01 10 13 00 16 69 - 05301 - 093026 olan Çıxarış itdiyi üçün etibarsız sayılır.

Məmmədov Xanlar Məmməd oğlunun adına Bakı şəhəri, Pirallahı (Əzizbəyov) rayonu, Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi, döngə 11, ev 3, mənzil 1 ünvanının seriya ÖM NC 242106 olan qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənova Gilə Bəylər qızının adına Bakı şəhəri, Səbail rayonu, R.Behbudov küçəsi, bina 8, mənzil 51 ünvanının Çıxarışı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Vurnuxma və tələsə qapılmayın, tələsik qərarlar verməyin, düşünülməmiş addımlar atmayın. Davranışınız yaxın ətrafınızdakı insanların aqressivliyinə və sərt reaksiyasına səbəb olmamalıdır.



**Buğa** - Asan gün olmayacaq. Lakin bütün sədləri dəf edərək məqsədə çata bilərsiniz. Nailiyyətlər əldə etmək üçün ciddi səy göstərmək gərəkdir. Kiçik qələbələrə asanlıqla nail olacaqsınız. Yanlış qərarlar verməyin, ciddi səhvlər etməyin.



**Əkizlər** - Bu günün yaratdığı imkanlar ilk baxışdan sərfəli təsir bağışlasa da, niyyət və ya planınızın reallaşması üçün daha uğurlu məqam ola bilər. İş yerini dəyişmək və ya köç üçün əlverişli zaman deyil.



**Xərçəng** - Qüvvələrinizi toplayın, fəal olun. Asan gün deyil. Xoşagəlməz təmayüllərin öhdəsindən gəlmək asan deyil. Sayıq olun, səhvlərə yol verməyin. Dostlar və ya müttəfiqlər sizə yardım etməyə hazırdırlar.



**Şir** - Mürəkkəb problemin və ya çətin məsələnin həllinə başlamaq üçün əlverişli zamandır. Mühüm danışıqlar aparın, fəaliyyət planını hazırlayın, ən önəmli və ciddi məqsədə çatmaq üçün yola çıxın.



**Qız** - Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün səy göstərin. Çoxsaylı işlərə başlamaq əvəzinə bir işi bitirin. Kommersiya fəaliyyətində uğur istisna deyil. Sərfəli anlaşmalara nail olmaq, yeni layihənin reallaşmasına başlamaq olar.



**Tərəzi** - Hadisələrin əvvəlcədən planlaşdırdığınız məcra ilə getməməsi sizi sinirləndirməsin. Situsiyanı dəyişmək üçün yetərincə enerjiniz var. İşgüzar həyatla bahəm şəxsi münasibətlərdə təşəbbüskar olun.



**Əqrəb** - Qəbul etdiyiniz qərarlar və atdığınız addımların sonuclarını əvvəlcədən düşünməyə çalışın. Sonradan peşmançılıq hissi yarada biləcək iş görməyin. Təcrübəli şəxslərin dediklərinə qulaq asın.



**Oxatan** - İşgüzar sahə ilə yanaşı, qeyri-kommersiya fəaliyyətində yeni əməkdaşlığa başlamaq üçün əlverişli zamandır. Öz maraqlarınızın tam təminatına çalışmaqla yanaşı, yaxın ətrafınızdakı insanların da mənafelərini nəzərə almağı unutmayın.



**Oğlaq** - Ən yüksək səviyyədə işgüzar danışıqların aparılması, məmurlar və dövlət qurumlarının mənsubları ilə görüşlər, hüquqi məsələlərinin həlli üçün əlverişli zamandır. Qüvvələrinizə əmin olun.



**Dolça** - Günün ilk yarısı əlverişlidir. Başladığınız bütün işlərdə, o cümlədən çətin problemin həllində məhsuldar fəaliyyət zamanıdır. Maliyyə məsələlərinin həllində çətinliklər yaranmayacaq.



**Balıqlar** - Əlverişli və uğurlu gündür. Başladığınız işlərdə uğur qazana bilərsiniz. Sizə verilən tapşırıqları vaxtında bitirmək üçün diqqətinizi fəaliyyət sahəsinə yönəldin. Maraqlı işgüzar təkliflər ala bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Starship" robot arabası tələbələrə yemək çatdıracaq

**ABŞ-ın Perdyu Universitetinin "West Lafayette" kampusunda "Starship" şirkətinin altıtəkərli robotlaşdırılmış arabaları istifadəyə verilib.**

"İctnews.az" bildirir ki, məlumata görə, universitet tələbələri "Starship" mobil əlavəsi vasitəsilə yemək sifariş etdikdən sonra avtonom araba onu dərhal təyinat yerinə çatdıracaq. Digər kampuslarda olduğu kimi, çatdırılmanın qiyməti 2 dollar təşkil edir. Hazırda "West Lafayette" "Starship" şirkətinin avtonom robotlaşdırılmış arabalar vasitəsilə qidanın çatdırılması üzrə servisin fəaliyyət göstərdiyi ən böyük tələbə kampusudur. "Starship" gələcəkdə avtonom robotların köməyi ilə yeməyin çatdırılması üzrə servislər şəbəkəsini genişləndirməyi planlaşdırır. Növbəti iki il ərzində ölkə kampuslarında belə robotların sayının bir neçə yüz minə çatacağı gözlənilir. Hazırda robotlaşdırılmış kuryerlərlə yeməyin çatdırılması üzrə "Starship" servisi Corc Meyson və Şimali Arizona universitetlərinin kampusunda da fəaliyyət göstərir. Servisin, həmçinin bu ay Pittsburq Universitetində istifadəyə verilməsi planlaşdırılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.